# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 82 (24.219)

*10 may 2023-cü il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 30 qəpik


## Prezident İlham Əliyev faşizm üzərində qələbə münasibətilə Azərbaycan veteranlarını təbrik edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tviter hesabında 9 May – Qələbə Günü ilə bağlı paylaşım edib.

Paylaşımda qeyd olunub: "9 may – II Dünya müharibəsində faşizm üzərində qələbə münasibətilə Azərbaycan veteranlarını təbrik edirəm!".

## Prezident İlham Əliyev Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü ilə əlaqədar paylaşım edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü ilə əlaqədar rəsmi tviter səhifəsində paylaşım edib.

## Azərbaycanın Mədəniyyət Paytaxtına "Heydər Əliyev İli" ərməğanı

### *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 9-da Şuşada bir sıra açılışlarda və təməlqoyma mərasimlərində iştirak ediblər*

Mayın 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Azərişıq" ASC-nin Şuşa Elektrik Şəbəkələrinin İnnovativ Texnologiyalar Mərkəzinin açılışını edib.

"Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin sədri Vüqar Əhmədov dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, Elektrik Şəbəkələrinin İnnovativ Texnologiyalar Mərkəzində (EŞİTM) müxtəlif gücdə transformatorlar, 35 kV-luq yeni yarımstansiya inşa olunub, müasir standartlara cavab verən elektrik avadanlıqları, elektrontipli rele mühafizəsi, avtomatika sistemləri və 0,4 kV şəbəkələrini də əhatə edən SCADA dispetçer idarəetmə sistemi quraşdırılıb.

Mərkəzin ərazisində elektromobillərin enerji ilə doldurulmaları üçün müvafiq qurğular yerləşdirilib. Burada, həmçinin günəş enerjisi ilə çalışan panellər quraşdırılıb. Həmin panellər vasitəsilə əldə olunan enerjinin bir hissəsi yarımstansiyada qəza hallarında daxili tələbatın ödənilməsi və elektromobil enerji doldurma cihazları üçün istifadə olunur. Qalan enerji isə avtomatik rejimdə şəbəkəyə ötürülür.

Şuşa şəhərinin ənənəvi elektrik təchizat şəbəkəsi rəqəmsal xəritə sisteminə köçürülərək planlama və ölçmə işlərinin aparılması təmin ediləcək. Şəhərin estetik görünüşünə xələl gətirən əvvəlki 48 Komplekt Transformator Məntəqəsi (KTM) əvəzinə müasir güc kabelləri ilə 35/0,4 kV-luq 9 transformator yarımstansiyası vasitəsilə dairəvi təchizat sxeminin qurulması həyata keçirilməkdədir. Bütün bunların nəticəsində kənar fiziki müdaxilələr və ətraf mühitin təsiri aradan qaldırılmış olur, ekoloji tələblər yerinə yetirilir, meşə zolaqları və canlı orqanizmlərin yanğın təhlükəsizliyi ilə bağlı risklər aradan qaldırılır. Bundan başqa, enerji itkiləri 3-3,5 faizədək azaldılır, işçi qüvvəsi, mal-material və istismar xərclərinə 60 faizədək qənaət olunur, enerji təchizatının keyfiyyət parametrləri yaxşılaşdırılır, texniki təhlükəsizlik qaydaları tam təmin edilir.

Elektrik Şəbəkələrinin İnnovativ Texnologiyalar Mərkəzi yeni yaradılan dairəvi təchizat sxeminin tərkib hissəsi kimi layihələndirilib, Nöqtə Buludu texnologiyasından istifadə edilməklə ərazinin virtual xəritəsi hazırlanıb, əraziyə getmədən sahədə ölçmə və layihələndirmə işlərinin yerinə yetirilməsi, görüləcək işlərin əvvəlcədən planlaşdırılaraq vaxta qənaət edilməsi, həyata keçirilən işlərin monitorinqinin və qiymətləndirilməsinin aparılması təmin olunacaq. Bundan əlavə, Şuşa şəhərinin və Mərkəzin Virtual Tur modeli hazırlanıb ki, bununla da cihaz və avadanlıqların, habelə şəbəkə aktivlərinin məsafədən əyani şəkildə təlim-tədrisinin təşkili mümkün olacaq.

Bildirildi ki, beynəlxalq təcrübədə istifadəsi və iqtisadi-texnoloji üstünlükləri nəzərə alınaraq Şuşa şəhərinin Rəqəmsal Əkiz modeli hazırlanıb, bu da EŞİTM-in təsnifat modelinə daxildir. Belə ki, burada quraşdırılan xüsusi monitorlar vasitəsilə Rəqəmsal İdarəetmə Mərkəzinin, rəqəmsal yarımstansiyanın, 3D mobil xəritə və Rəqəmsal Əkiz modelin, Kompozit dayaqların, optik lifli güc kabelləri ilə qurulan 35/0,4 kV şəbəkə modelinin, Yeni Yaşma Külək Enerji Stansiyasının, mikro-fotovoltaik stansiyaların, elektron xidmətlərin, SCADA sisteminin, bərpa olunan enerji mənbələrinin, qabaqcıl ölçmə infrastrukturun, Şəbəkələrin Dron Monitorinq Sisteminin, müasir 0,4 kV-luq Dispetçer və Smart Sayğac oxuma sistemlərinin interaktiv rejimdə izlənməsinə imkan yaranacaq.

Prezident İlham Əliyev "Azərişıq" ASC-nin Şuşa Elektrik Şəbəkələrinin İnnovativ Texnologiyalar Mərkəzini işə saldı.

Mərkəzdə təhlükəsizliyin təmin edilməsi və qəzaların aradan qaldırılması məqsədilə qapalı paylayıcı quruluşla digər yarımstansiyalar arasında əlaqələr, eləcə də yarımstansiyadan çıxan elektrik verilişi xətləri yeraltı kabellər vasitəsilə həyata keçirilir.

Burada növbətçi heyət üçün lazımi iş şəraiti, müvafiq xidmət otaqları yaradılıb, ərazidə geniş abadlıq işləri görülüb.

***

Qeyd edək ki, Yaşıl Enerji Zonasında "Azərişıq" ASC tərəfindən qurulan paylayıcı şəbəkələrdə mikrosəviyyəli bərpa olunan enerji mənbələrinin tətbiqi enerji itkilərinin kompensasiyası, xüsusi sərfiyyat tələbatının ödənilməsi, enerji böhranı hallarında güc mərkəzlərinin dayanıqlı işinin təmini və elektrik avtomobillərinin enerji ilə təchiz edilməsi üçün nəzərdə tutulub. Bununla yanaşı, paylayıcı şəbəkələrdəki enerji obyektlərinin dam örtüklərində quraşdırılan Günəş enerji mənbələri bir sıra üstünlüklərə malikdir. Belə ki, bu mənbələr əlavə torpaq sahəsi tələb etmir, müasir ekoloji tələblərə cavab verir, güc mənbəyinə kommutasiyası ciddi xərc tələb etmir, illik ən azı 40 min kVts enerji istehsalı imkanına malikdir. Bir Günəş enerji mənbəyi ilə ildə 1150 elektromobilin enerji tələbatını təmin etmək mümkündür ki, bu da ildə 23 min ton karbohidrogen yanacağına qənaət deməkdir.

Müasir paylayıcı şəbəkələrdə tətbiq edilən paylanmış generasiya mənbələri, eyni zamanda enerji böhranı hallarında qlobal mənbələr şəbəkəsi yaratmağa imkan verir ki, bu da enerji təchizatında dayanıqlılığı artırır.

"Azərişıq" ASC-nin bütün şəbəkələri üzrə transformator yarımstansiyalarının yaşıl enerji mənbələri ilə təchiz edilməsi nəticəsində illik 48 milyon kVts elektrik enerjisinin hasil olunması ilə 12 milyon kubmetr təbii qaza qənaət etmək mümkündür. Nəticədə, Günəş enerji sistemlərinin bütün istismar dövrü ərzində CO2 (karbon dioksid) kvota dəyəri də nəzərə alınmaqla, 145,4 milyon manat vəsait əldə edilə bilər.

İşğaldan azad edilmiş ərazilərdə inşası nəzərdə tutulan 400-dən çox enerji obyektində tətbiq ediləcək yaşıl enerji mənbələrinin bütün istismar dövrü ərzində orta hesabla 480 milyon kVts elektrik enerjisi ilə 120 milyon kubmetr təbii qaza qənaət təmin oluna bilər. Bununla yanaşı, bərpa olunan enerji mənbələrinin paylayıcı şəbəkələrdə tətbiqi iqlim dəyişikliklərinin mənfi təsirlərinin qarşısının alınmasında ölkəmizin Paris Sazişi üzrə istilik effekti yaradan qazların emissiyasının 2030-cu ilədək 35 faiz azaldılmasına imkan verəcək.

*Ardı 2-ci səhifədə*

Mayın 9-da Şuşada Atatürk küçəsinin lövhəsinin açılışı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Prezidentin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov dövlətimizin başçısına küçədə aparılacaq bərpa-yenidənqurma işləri, yaradılacaq ictimai-iaşə obyektləri barədə məlumat verdi.

Bildirildi ki, küçənin uzunluğu 714 metr, eni isə 11 metrdir.

Dövlətimizin başçısı Atatürk küçəsinin lövhəsinin açılışını etdi.

Mayın 9-da Şuşa şəhərinin Qarabağ küçəsində inşa olunacaq qeyri-yaşayış binasının təməli qoyulub.

Əvvəlcə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə Qarabağ və Sadıqcan küçələrində görüləcək işlər barədə məlumat verildi.

Bildirildi ki, Qarabağ küçəsində inşa ediləcək yaşayış binasının ümumi sahəsi 5400 kvadratmetr olacaq. Dörd mərtəbədən və zirzəmi qatından ibarət binada yerləşəcək mənzillərdən 24-ü ikiotaqlı, 6-sı isə üçotaqlıdır. Qeyd edildi ki, ərazidə qeyri-yaşayış binası da inşa olunacaq. A və B korpuslarından, həmçinin ofis binasından ibarət həmin binanın ümumi sahəsi 5745 kvadratmetr nəzərdə tutulub. Binanın ikinci mərtəbəsində avtodayanacaq yerləşəcək.

Sonra dövlətimizin başçısı Qarabağ küçəsində inşa olunacaq qeyri-yaşayış binasının təməlini qoydu.

Qeyd edək ki, dövlətimizin başçısının tapşırığına əsasən Qarabağ küçəsinin abadlaşdırılması ilə bağlı ilkin vəsait ayrılıb. Abadlıq və infrastruktur işləri binaların inşası prosesi ilə paralel aparılır. Görülən işlərin bir qismi Prezident İlham Əliyevin tapşırığı ilə dövlət-özəl sektor tərəfdaşlığı əsasında həyata keçirilir. Xüsusi vurğulamaq lazımdır ki, Azərbaycan Prezidenti bu küçəyə rəmzi olaraq "Qarabağ" adını verib. Gövhər Ağa məscidi, "Qarabağ" oteli, xüsusi nümayəndəliyin binası Şuşanın mərkəzini əhatə edən bu küçədə yerləşir. Küçənin yenidən qurulması zamanı Şuşanın tarixi-milli memarlıq üslubunun qorunması xüsusilə diqqətdə saxlanılır.

Şuşalı keçmiş məcburi köçkünlərin yaxın gələcəkdə doğma şəhərlərinə qayıdışından sonra Prezident İlham Əliyevin tapşırığı ilə burada, əsasən, yerli sakinlərin işə götürülməsi nəzərdə tutulur. Bu baxımdan əhalinin məşğulluğunun təmin olunması istiqamətində də fasiləsiz iş aparılır, siyahılar dəqiqləşdirilir. Şuşada fəaliyyət göstərmək məqsədilə qeydiyyatdan keçən şirkətlər tərəfindən yerli sakinlər üçün təşkil olunan üç əmək yarmarkasında 200-dək şuşalı gənc siyahıya alınıb. Hazırda onlar üçün treninqlər təşkil olunur.

* * *

Mayın 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Şuşada Molla Pənah Vaqif və Pənahəli xan küçələrinin kəsişməsində lövhələrin açılışında iştirak edib.

Prezidentin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov dövlətimizin başçısına küçələrdə görüləcək işlər barədə məlumat verdi.

Bildirildi ki, Molla Pənah Vaqif küçəsinin uzunluğu 2473 metr, eni isə yol yatağına uyğun olaraq 10-15 metr aralığında dəyişir.

Pənahəli xan küçəsinin uzunluğu 864 metr, eni isə yol yatağına uyğun olaraq 10-13 metr təşkil edəcək.

Qeyd edildi ki, küçələr müasir səviyyədə yenidən qurulacaq, bütün zəruri infrastruktur yaradılacaq.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 9-da Cıdır düzündə Mir Möhsün Nəvvab Qarabağinin Heydər Əliyev Fondu tərəfindən bərpa olunan məzarını ziyarət edib.

Prezidentin köməkçisi Anar Ələkbərov dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, XIX əsrin Azərbaycana bəxş etdiyi görkəmli simalardan, şəxsiyyətlərdən biri, şair, rəssam, xəttat, musiqi nəzəriyyəçisi, Qarabağ ədəbi mühitinin inkişafında özünəməxsus rolu olmuş ensiklopedist alim Mir Möhsün Nəvvab Qarabağinin Şuşa şəhərindəki məzarı və qəbirüstü abidəsi bərpa olunub.

Şuşa şəhəri işğal altında olduğu illərdə Mir Möhsün Nəvvab Qarabağinin Cıdır düzündə yerləşən məzarı ermənilər tərəfindən tamamilə dağıdılmışdı. Heydər Əliyev Fondu bu ilin mart ayından ərazidə müvafiq işlərə başlayıb və qəbirüstü abidə bərpa olunub.

Prezident İlham Əliyev Mir Möhsün Nəvvab Qarabağinin məzarı üzərinə gül dəstəsi qoydu.

Qeyd edək ki, bu il görkəmli alimin anadan olmasının 190 ili tamam olur. Heydər Əliyev Fondu tərəfindən aparılmış bərpa işləri alim və şairin xatirəsinə ehtiram, eləcə də mədəniyyətimizin qorunub saxlanılması istiqamətində görülən işlərə daha bir töhfədir.

Xatırladaq ki, Mir Möhsün Nəvvab Qarabaği 1833-cü ildə Şuşada anadan olub, orada yaşayıb-yaradıb və 1918-ci ildə vəfat edib.

* * *

Mayın 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşada Heydər Əliyev Fondu tərəfindən aparılan bərpa işlərindən sonra Mehmandarovların malikanə kompleksinin açılışında iştirak ediblər.

Dövlətimizin başçısına və birinci xanıma kompleksdə görülən işlər barədə məlumat verildi.

Bildirildi ki, Mehmandarovların malikanə kompleksi Mehmandarov nəslinin nümayəndələri tərəfindən XVIII əsrdə inşa olunub. Yaşayış kompleksinə böyük yaşayış binası, kiçik yaşayış binası, ailə məscidi və bulaq daxildir.

Diqqətə çatdırılıb ki, 2021-ci ilin oktyabr ayından etibarən Mehmandarovların malikanə kompleksində, ərazidəki ailə məscidi və bulaqda təmir-bərpa işləri aparılıb, bulağın damı əvvəlki vəziyyətinə gətirilib. Bulaq Prezident İlham Əliyev 2022-ci ilin sentyabrında kompleksdə bərpa işlərinin gedişi ilə tanış olarkən istifadəyə verilib.

Kompleksə daxil olan evin və məscidin binalarının dam örtükləri yenilənib, tavanlar bərpa edilib. Malikanə kompleksinin dağılmış divarı bərpa olunub, zədəli divarda bərkitmə işləri aparılıb. Evin döşəmə daşlarının dağılmış yerləri, pilləkəni yenidən qurulub, divar və tavanlardakı rəsmlər eskiz layihələri üzrə bərpa edilib. Məscidin "Güldəstə"si restavrasiya olunub.

Qeyd olundu ki, yaşayış evinin həyətində XX əsrin əvvəllərinə aid tarixi fayton da dövrünün texnologiyalarına uyğun bərpa edilib.

Görülmüş işlərdən sonra malikanə kompleksində muzey ekspozisiyası qurulub. "Qarabağ zadəganının evi" mövzusundakı ekspozisiya tərtib edilərkən XIX əsrin sonu – XX əsrin əvvəllərində Qarabağ zadəganının evinin interyeri, ziyalı şəxsin həyat tərzinin

Ardı 3-cü səhifədə

xüsusiyyətləri əsas götürülüb.

Ekspozisiyada Azərbaycan Milli Kino-Foto Sənədləri Arxivi, Milli Azərbaycan Tarixi Muzeyi, Azərbaycan Milli İncəsənət Muzeyi, AMEA-nın Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun materialları, həmçinin elmi ədəbiyyat mənbə qismində istifadə edilib.

Zadəgan malikanəsinin qonaq otağı evin siması olduğundan burada ən müasir interyer elementlərindən istifadə edilirdi. Otaqda milliliyi nümayiş etdirən elementlər də var idi. İnteryerdə dövrün fotoçərçivələrinə salınmış məlumat və portretlər asılıb. İnteryer təəssüratını pozmamaq üçün foto və məlumatların çərçivələri dövrə uyğun tərtib edilib. Fotolar Şuşanın tanınmış zadəgan nəsilləri – Mehmandarovlara, onlarla qohumluq əlaqəsi olan Rüstəmbəyovlara, Vəzirovlara, Qacarlara aiddir.

Malikanədəki otaqları milli əşyalarla yanaşı, avropasayağı məişət əşyaları da bəzəyir. Otaqlar dövrün eksponatları ilə XIX əsrin sonu-XX əsrin əvvəllərinə aid interyer qaydalarına uyğun tərtib edilib. Burada ziyarətçi özünü XIX əsrin sonu-XX əsrin əvvəllərində yaşamış azərbaycanlı zadəganının evindəki kimi hiss etmiş olur.

Ekspozisiyanın tərtibatı zamanı 150-dən çox əntiq əşyadan istifadə edilib.

Xatırladaq ki, işğaldan azad olunan ərazilərdə genişmiqyaslı quruculuq işləri, mədəni-dini abidələrimizin bərpası davam edir.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu işğaldan azad olunan ərazilərdə 2020-ci il dekabrın 8-dən etibarən mədəni-dini abidələrin, məscidlərin bərpası layihələrinin icrasına başlayıb. Bununla da Heydər Əliyev Fondu tarixi bərpa işlərində dövlət tərəfindən həyata keçirilən layihələrə vətəndaş cəmiyyətinin üzvü kimi öz dəstəyini göstərir. Aparılan işlərə yerli ekspertlərlə yanaşı, xarici mütəxəssislər də cəlb olunub.

Heydər Əliyev Fondunun Qarabağdakı bərpa layihələrinin bir hissəsi isə Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində həyata keçirilib. Bunların sırasına dahi Azərbaycan şairi və ictimai xadim Molla Pənah Vaqifin muzey-məqbərə kompleksinin, Vaqifin büstünün yenidən qurulması, görkəmli bəstəkar Üzeyir Hacıbəylinin heykəlinin Şuşada yenidən ucaldılması və digərləri daxildir.

Heydər Əliyev Fondu hazırda Şuşada daha bir neçə layihənin bərpasını başa çatdırıb. Mehmandarovların malikanə kompleksi də bu layihələrdən biridir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 9-da Şuşada Xüsusi nümayəndəliyin inzibati binasının qarşısındakı meydanda olublar.

Dövlətimizin başçısına və birinci xanıma meydanda görüləcək işlər barədə məlumat verilib.

**AZƏRTAC**

# Heydər Əliyev İli

*Hər bir xalqın varlığı onun birliyi, bu birliyi təmin edən liderlərinin güclü idarəçilik bacarığı ilə tarix səhnəsində tutduğu mövqe ilə ölçülür. Azərbaycan xalqı da xoşbəxt xalqlardandır ki, bu xalqın ən keşməkeşli tarixi dövrlərində onu zamanın ən ağır sınaqlarından üzüağ çıxararaq mövcudluğunu təmin edən Heydər Əliyev kimi dahi lideri olub. Dünya şöhrətli siyasətçi öz xalqının taleyinə həlledici təsir göstərmiş, ölkəsinin adını həm milli, həm də bəşər tarixinə şərəflə həkk etmiş, əsrlərboyu formalaşmış milli-mənəvi dəyərləri qorumaqla dövlətinin gələcəyini uğurla müəyyənləşdirmiş böyük şəxsiyyətdir. Təsadüfi deyildir ki, xalqımızın dahi oğlunun anadan olmasının 100-cü ildönümü ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2022-ci il 29 sentyabr tarixli Sərəncamı ilə 2023-cü il Azərbaycanda "Heydər Əliyev İli" elan olunmuşdur.*

## Əsrlərə sığmayacaq əbədiyaşarlıq, liderlik zirvəsi

*"Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoymuşdur. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir".*

***"Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında" Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 2022-ci il 29 sentyabr tarixli Sərəncamından***

Ümummilli Lider Heydər Əliyev 1923-cü il mayın 10-da qədim Naxçıvan diyarında dünyaya göz açmış, hələ yeniyetmə və gənclik çağlarından öz dərin zəkası və fitri istedadı ilə seçilmişdir. ***"Mən balaca bir evdə, zəhmətkeş ailəsində, bir yaz günü dünyaya göz açmışam. Anadan olanda, yəqin ki, beş-on, uzağı otuz-qırx nəfər sevinib. İndi, bəlkə də, bir o qədər qeyri-təvazökar səsləndi, amma deməliyəm ki, anam məni, bütövlükdə, Azərbaycanımız üçün dünyaya gətirib. Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır. Bütün şüurlu ömrümü onun inkişafına, tərəqqisinə həsr etmişəm".*** Ulu Öndərin öz dilindən səslən bu fikirlər həm də onun təsdiqidir ki, görkəmli dövlət xadimi Azərbaycanı bir-birindən fərqli üç mürəkkəb siyasi-tarixi mərhələdə – 1969-1987, 1990-1993 və 1993-2003-cü illərdə böyük qətiyyətlə qoruyaraq, onu inkişaf etdirərək möhtəşəm siyasi uğurlara imza atmışdır.

Böyük şəxsiyyətin 1969-1982-ci illərdə Azərbaycanın rəhbəri kimi fəaliyyəti digər ittifaq respublikalarından geridə qalmış Sovet Azərbaycanı üçün dirçəliş dövrü kimi tarixə düşmüşdür. O dövrdə dahi rəhbər sənaye və kənd təsərrüfatının inkişafına yönəlmiş çox mühüm qərarlar qəbul etmiş, bunun nəticəsində Azərbaycanda yüzlərlə sənaye müəssisəsi tikilib istifadəyə verilmiş, kənd təsərrüfatı sahələri sürətlə inkişaf etdirilmişdir. Həmçinin həmin dövrdə ölkəmizin gələcəyi üçün milli kadrların yetişdirilməsinə başlanılmış, milli özünüdərkin əsası qoyulmuşdur. Elm, təhsil, səhiyyə, mədəniyyət sahələrinin inkişaf etdirilməsi ilə yanaşı, milli hərbi kadrların formalaşdırılması da diqqət mərkəzində saxlanılmış, uzaqgörən dövlət xadiminin dəmir qətiyyəti sayəsində Azərbaycanın bugünkü hərbi uğurlarının təməli sayılan ilk ibtidai hərbi məktəb yaradılmışdır.

Azərbaycanın və Türk dünyasının böyük oğlu Heydər Əliyev 1982-1987-ci illərdə Sov. İKP MK Siyasi Bürosunun üzvü və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi yüksək dövlət vəzifələrində fəaliyyət göstərəndə də Azərbaycanın mənafeyini hər zaman üstün tutmuşdur. Unutmaq olmaz ki, dahi şəxsiyyət SSRİ rəhbərliyində təmsil olunan zaman erməni şovinistləri respublikamıza qarşı əsassız ərazi iddiaları irəli sürməyə cəsarət edə bilməmişdilər. Buna görədir ki, böyük təzyiqlər nəticəsində 1987-ci ildə Ulu Öndərimiz siyasi hakimiyyətdən uzaqlaşmış, bundan 15 gün sonra Azərbaycanın keçmiş Dağlıq Qarabağ ərazisinin müstəqilliyi məsələsi gündəliyə çıxarılmışdı. Erməni millətçiləri və onların Moskvadakı havadarlarının Azərbaycana qarşı təzyiqləri başlamış, bu təzyiqlərin tərkib hissəsi kimi 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə paytaxt Bakı şəhərinə hərbi qoşun qüvvələri yeridilmişdir. Həmin vaxt böyük siyasi iradə nümayiş etdirərək Moskvadakı Azərbaycan nümayəndəliyində Ulu Öndər Heydər Əliyev təcavüzkarları cəsarətlə ifşa etmiş, baş vermiş hadisənin hərbi cinayət olduğunu bütün dünyaya çatdırmışdır. Bu bəyanatdan sonra görkəmli dövlət xadiminə qarşı böyük təzyiqlər başlamış, dahi şəxsiyyət 1990-cı il iyul ayının 20-də Bakıya, iki gün sonra isə doğma Naxçıvana gəlmiş, burada xalq tərəfindən böyük izdiham, sevgi və coşqu ilə qarşılanmışdır.

Görkəmli dövlət xadiminin doğulub boyabaşa çatdığı Naxçıvana qayıdışı həm də tarixi zərurət idi. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev bununla bağlı demişdir: ***"Sovet İttifaqının dağıldığı ərəfədə və ondan sonra Naxçıvan çox ağır günlər yaşayıb. O illərdə ancaq Ulu Öndər Heydər Əliyevin əzmkarlığı, qətiyyəti və siyasi bacarığı Naxçıvanı böyük bəlalardan qorudu... O, məcbur olub Moskvadan Bakıya döndü. Ancaq Bakıda ovaxtkı rəhbərlik təzyiqləri davam etdirirdi və Heydər Əliyev öz Vətəninə, doğulduğu yerə – Naxçıvana gəldi. Onun gəlişi Naxçıvanı böyük bəlalardan qurtardı. Naxçıvanlılar Heydər Əliyevi qorudular, Heydər Əliyev isə Naxçıvanı qorudu".***

Heydər Əliyevin Moskva həyatından sonra mənalı ömrünün 3 ili Naxçıvanla bağlı olmuşdur. Onun 1990-1993-cü illərdə Azərbaycan və Naxçıvan parlamentlərinin deputatı, Naxçıvan Muxtar Respublikasının rəhbəri kimi fəaliyyət göstərməsi həm milli dövlətçiliyin bərpası istiqamətində böyük addımların atılması ilə nəticələnmiş, həm də muxtar respublika işğal təhlükəsindən qorunmuşdur. 1990-cı ilin noyabr ayında Ulu Öndərin sədrliyi ilə keçirilən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin ilk sessiyasında qəbul olunan tarixi qərarlar milli dövlətçiliyimizin əsaslarının yaradılmasına hesablanmışdı. Sovetlər birliyinin hələ mövcud olduğu bir dövrdə üçrəngli milli bayrağımızın Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi qəbul edilməsi, Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adından "Sovet Sosialist" sözlərinin çıxarılması böyük cəsarət tələb edirdi. Bütün bunlar 1991-ci ildə Azərbaycanın müstəqilliyini elan etməsinə şərait yaratmışdır. Bu tarixi hadisə nəinki Azərbaycanın, sovetlər birliyinin digər müttəfiq respublikalarının da müstəqillik qazanmasına yol açmışdır. Digər tərəfdən, muxtar respublikanın iqtisadi problemlərinin həllinə ciddi diqqət yetirilir, blokadanın vurduğu ziyanın aradan qaldırılması üçün tədbirlər görülür, quruculuq işləri aparılırdı.

Həmin dövrdə Naxçıvan Muxtar Respublikası Dövlət Müdafiə Komitəsinin təşkili ilə Naxçıvanın müdafiəsi üçün sistemli tədbirlər görülmüş, ölkəmizdə ilk dəfə Naxçıvanda nizami ordu hissələri yaradılmışdır. Ulu Öndər 1992-ci ildə tarixi Moskva və Qars müqavilələrini gündəmə gətirməklə Ermənistanın təcavüzkar siyasətini, Naxçıvanın muxtariyyət statusunu, əzəli Azərbaycan torpağı kimi toxunulmazlığını beynəlxalq miqyasda bir daha təsdiqləmiş, ağır blokada şəraitində olan muxtar respublika iqtisadi böhrandan çıxarılmışdır. Dahi şəxsiyyətin Naxçıvandakı siyasi fəaliyyəti ərzində bölgənin erməni işğalından müdafiəsi, milli şüurun dirçəlişi, milli dövlət strukturlarının formalaşması kimi mühüm tarixi nailiyyətlər əldə olunmuş, xalqla həmrəyliyin təntənəsi öz təsdiqini tapmışdır. Bütün bunlarla bərabər, bu gün yüz minlərlə siyasi həmfikri öz ətrafında birləşdirən, iqtidar partiyası kimi liderliyini qoruyub saxlayan Yeni Azərbaycan Partiyasının təsis edilməsi, az vaxt ərzində böyük nüfuz qazanması da Ulu Öndərin siyasi fəaliyyətinin Naxçıvan dövrünün bəhrəsidir. 31 dekabrın "Dünya Azərbaycanlılarının Həmrəylik Günü" kimi qeyd olunması ilə bağlı qərarla dünya azərbaycanlılarının milli həmrəylik ideologiyasının təməli də həmin dövrdə Naxçıvanda qoyulmuşdur. Həmçinin Azərbaycanın müstəqillik yolu 1991-ci ildə Sovet İttifaqının saxlanması üçün keçirilən qanunsuz referenduma "Yox!" deməklə məhz Naxçıvandan başlanmışdır. Bir sözlə, Ümummilli Lider Heydər Əliyevin siyasi fəaliyyətinin Naxçıvan dövrü xalqımızın milli tarixinə qızıl hərflərlə yazılmışdır.

Müdrik rəhbərin özü də Naxçıvanda yaşayıb fəaliyyət göstərdiyi həmin illəri çox yüksək səviyyədə qiymətləndirmişdir: ***"Naxçıvanda doğulmağım, ərsəyə gəlməyim, təhsil almağım mənim üçün əzizdir. Azərbaycana rəhbərlik etdiyim zaman Naxçıvanda quruculuq işlərinin görülməsindəki fəaliyyətim də mənim üçün əzizdir. Ancaq mənim üçün bunların hamısından əziz 1990-cı ildən 1993-cü ilə qədər burada sizinlə bir yerdə yaşamağım, işləməyim olubdur".***

1993-cü il iyunun 15-də Azərbaycan xalqının təkidli tələbi ilə ikinci dəfə siyasi hakimiyyətə qayıdan görkəmli dövlət xadimi 10 il ərzində əsrlərə bərabər işlər görmüş, müstəqil Azərbaycanın xilaskarı və qurucusu kimi böyük tarixi missiyanı uğurla həyata keçirmişdir. Azərbaycan tarixinə "Milli Qurtuluş Günü" kimi yazılan 15 iyun tarixi müstəqilliyimizin və dövlətçiliyimizin xilası gününə çevrilmişdir. Məhz Heydər Əliyev dühasının ikinci dəfə hakimiyyətə qayıdışından sonra Ulu Öndərin böyük xidmətləri sayəsində Azərbaycan iqtisadiyyatının inkişafı üçün mühüm əhəmiyyətə malik qlobal layihələrə imza atılmış, xarici neft şirkətləri ilə "Əsrin müqaviləsi" imzalanmışdır. Qısa müddətdə ölkəmiz beynəlxalq təşkilatlarda layiqincə təmsil olunmağa başlamış, hüquqi-demokratik prinsiplərə əsaslanan Konstitusiya qəbul edilmişdir. Beynəlxalq aləmdə gündən-günə nüfuzu artan Azərbaycan həyata keçirdiyi qlobal layihələrlə də öz gücünü artırmış, bu gün Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizləri üzrə ən mühüm tranzit qovşağına çevrilmişdir. Heydər Əliyev siyasi yolunun ölkə başçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin nəticəsidir ki, bu gün Azərbaycan dünyada iqtisadi

*Ardı 4-cü səhifədə*

# Heydər Əliyev İli

100

və siyasi sabitliyin qorunduğu, bütün sahələr üzrə davamlı inkişaf edən ölkələrdən birinə çevrilib. Azərbaycan bu siyasi kursa sadiq olmaqla bu gün beynəlxalq müstəvidə möhtəşəm nailiyyətlər ortaya qoyur. İqtisadi cəhətdən güclü, siyasi cəhətdən isə əsl müstəqil dövlətə çevrilmiş Azərbaycanın mövqeyi regional və beynəlxalq məsələlərdə mütləq nəzərə alınır. Azərbaycan Cənubi Qafqazın lider dövlətinə çevrilib. Bu, Azərbaycanın artan mövqeyinin, nüfuzunun göstəricisidir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin beynəlxalq müstəvidə, eləcə də ölkə reallıqları çərçivəsində Ümummilli Liderin yolunu uğurla davam və inkişaf etdirməsi möhtəşəm nailiyyətlər ortaya qoymaqdadır.

Təbii ki, ötən illər ərzində Azərbaycanın artan iqtisadi gücü digər sahələrin, xüsusilə ordu quruculuğu sahəsində köklü islahatların aparılmasına, hərbi kadrların hazırlanması, maddi-texniki bazanın yenidən qurulması, ordumuzun döyüş potensialının artırılmasına imkan vermişdir. Məqsədyönlü şəkildə aparılan ordu quruculuğu prosesi illərdir, işğal altında saxlanılan torpaqlarımızın 2020-ci ildə azad olunması ilə nəticələnmişdir. Münaqişənin həllinə qədər olan dövrdə cənab İlham Əliyev ən mötəbər kürsülərdən Azərbaycanın haqq səsini dünyaya çatdırmışdır. Amma nəticə olmayınca Azərbaycan bu məsələni hərbi yolla həll etdi. Buna görə də 27 sentyabr 2020-ci il Azərbaycan region, hətta dünya üçün yeni tarixə çevrildi. Ermənistanın növbəti təxribatına cavab olaraq Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu genişmiqyaslı əks-hücum əməliyyatına başladı. 44 gün davam edən müharibədə Ermənistan ordusu tamamilə darmadağın edildi və düşmən kapitulyasiyaya məcbur oldu. Vətən müharibəsində qazandığı uğurlarla dövlət başçısı həm də ata vəsiyyətini layiqincə yerinə yetirdi. Artıq iki ildən çoxdur ki, cənab İlham Əliyevin rəhbərliyi altında işğaldan azad edilmiş torpaqlarda böyük infrastruktur işləri görülür, yeni elektrik stansiyaları, yollar, hava limanları, inzibati və yaşayış binaları tikilir, 30 ildir, el-obasına həsrət qalan insanların doğma yurd-yuvasına Böyük Qayıdışı başlayıb.

Azərbaycanımızın ayrılmaz hissəsi, qədim Naxçıvan diyarı da Heydər Əliyev ideyalarının işığında uğurla irəliləyir. Uzun illərin blokada şəraitinə baxmayaraq, ölkə başçısının Naxçıvana daimi diqqət və qayğısı regionun hərtərəfli inkişafına şərait yaradıb, iqtisadiyyatın inkişafı, sabitlik, əhalinin həyat səviyyəsinin yüksəlməsi təmin olunub. Cənab İlham Əliyevin qətiyyəti və şəxsi təşəbbüsü ilə 10 noyabr 2020-ci ildə Azərbaycan, Ermənistan və Rusiya liderlərinin imzaladıqları birgə Bəyanata salınmış xüsusi bənd isə bu qədim diyarı Zəngəzur dəhlizi vasitəsilə Şərqlə Qərb arasında beynəlxalq nəqliyyat qovşağına çevirir. Bu gün yeni inkişaf və idarəetmə mərhələsinə qədəm qoyan Naxçıvan bundan sonra həm də Avropa və Asiya arasındakı əlaqələrə verdiyi töhfələrlə yadda qalacaq.

Ümummilli Liderimiz deyirdi: ***"İstəyirəm ki, mənim arzum, istəklərim, Azərbaycan dövləti haqqında, müasir Azərbaycanın gələcəyi haqqında və Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan haqqında planlarım, arzularım yerinə yetsin".*** Bu gün artıq Ulu Öndərin arzularındakı Naxçıvan gələcəyə doğru mətin addımlarla addımlayır. Çünki dahi şəxsiyyət əsasını qoyduğu dövlətçilik xəttini davam etdirməyə qabil böyük bir lider yetişdirib. Dövlət başçımızın rəhbərliyi ilə Naxçıvan Muxtar Respublikası üzrə Azərbaycan Prezidentinin səlahiyyətli nümayəndəliyinin yaradılması müasir idarəetmə sistemi formalaşdırmaq, iqtisadi resurslardan istifadə imkanlarını genişləndirmək, sosial rifahı yüksəltmək, sosial ədalətin və şəffaflığın bərpa olunması istiqamətində real nəticələrini verməkdədir. Danılmaz faktdır ki, xalqımız Heydər Əliyev siyasətini uğurla davam etdirən cənab İlham Əliyevin rəhbərliyi altında daha böyük uğurlar qazanır. Ötən hər gün Azərbaycanı daha böyük tərəqqiyə qovuşdurur. İllər ötdükcə Azərbaycan xalqının böyük oğlu Heydər Əliyevin xalqımız qarşısında tarixi xidmətləri də daha aydın görünür, onun böyüklüyünü daha çox hiss edirik. O, Azərbaycanın yalnız bu gününü deyil, xalqımızın sabahını, dövlətimizin gələcəyini düşünürdü. Bütün ömrünü də Azərbaycanın gələcək inkişaf və rifahına sərf etdi. Gördüyü əvəzolunmaz işlərlə hələ sağlığında xalqımızın Ümummilli Liderinə çevrildi. Buna görə də Heydər Əliyev Azərbaycan xalqı durduqca onunla yaşayacaqdır. Azərbaycan Prezidenti cənab İlham Əliyevin dediyi kimi: ***"Nə qədər Azərbaycan var, Heydər Əliyev də olacaqdır. Biz – Ulu Öndərin davamçıları onun yolu ilə gedəcəyik, Azərbaycanı gücləndirəcəyik, müstəqilliyimizi qoruyacağıq".***

✍ **Səbuhi HƏSƏNOV**
***Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti***

## Azərbaycan xalqının arzularını reallaşdıran LİDER

**Ulu Öndər Heydər ƏLİYEV:** *"Mən İlham Əliyevə özüm qədər inanır və onun gələcəyinə böyük ümidlər bəsləyirəm. Əminəm ki, mənim başa çatdıra bilmədiyim işləri o başa çatdıracaqdır".*

*Tarix dəfələrlə sübut edib ki, xalqın vahid məqsədlər uğrunda birləşməsi üçün zəruri olan milli birlik böyük siyasi dühaların yaratdığı ideologiyalarda reallaşır. XX əsrdə xalqımızla bağlı bu şərəfli missiyanı Ümummilli Lider Heydər Əliyev həyata keçirmişdir. Ulu Öndərimiz həyatının bütün dövrlərində milli ideologiyanın formalaşması və möhkəmlənməsi naminə müstəsna xidmətlər göstərmiş, milli şüurun inkişafına nail olmuş, xalqa məxsus adət-ənənə və dəyərlər sistemini qloballaşmanın sərt təsirlərindən qorumağı bacarmış, Azərbaycançılığı milli ideologiyaya çevirməyə nail olmuşdur.*

### *Uğurlu siyasətin layiqli varisi – "Mən hər bir azərbaycanlının Prezidenti olacağam"*

Vətəni və milləti qarşısında misilsiz xidmətləri olan, müstəqilliyimizin müəllifi və müasir dövlətimizin memarı Ulu Öndər Heydər Əliyevin xalq qarşısındakı ən böyük xidmətlərindən biri də Azərbaycanın gələcək taleyində əvəzsiz rolu, milləti və dövləti qarşısında müstəsna xidmətləri olan cənab İlham Əliyev kimi böyük şəxsiyyət və müdrik bir lider yetişdirməsi olmuşdur. Bu ondan irəli gəlirdi ki, Vətənini canından çox sevən uzaqgörən insanı Azərbaycanın özünün rəhbərlik etdiyi dövrlə yanaşı, ondan sonrakı taleyi də düşündürürdü. Müasir Azərbaycan dövlətinin memarı Ümummilli Lider Heydər Əliyev qurduğu dövlətin taleyini tapşıracağı yeni Liderin seçilməsində nümayiş etdirdiyi özünəməxsus müdrikliyin miqyası illər keçdikcə daha aydın görünür, seçimin uğuru təkzibolunmaz şəkildə öz təsdiqini tapdı. Ümummilli Liderin bu uzaqgörənliyinin və seçiminin alternativsizliyi zaman keçdikcə daha əsaslı şəkildə təsdiqini tapmaqdadır. Hələ 2003-cü ildə dövlət başçısı kimi səlahiyyətlərinin icrasına başlayarkən ***"Mən hər bir azərbaycanlının Prezidenti olacağam"***, – deyən cənab İlham Əliyev cəmiyyətdə mütləq çoxluğun böyük rəğbət və etimad göstərdiyi liderə çevrilmişdir. Ötən illərin reallıqları zamanın dahisi Heydər Əliyev siyasi kursunun diktə etdiyi sülh, sabitlik və tərəqqi yolunun alternativsizliyini sübuta yetirmiş, inam və etimad üzərində qərarlaşan, gələcəyə hesablanan güclü dövlət konsepsiyası ilbəil uğurla gerçəkləşdirilmişdir.

Xalqımızın Ümummilli Liderinin müdrik siyasətini dövrün tələblərinə uyğun uğurla davam etdirən dövlət başçısı cənab İlham Əliyevin yüksək erudisiyası, mükəmməl siyasi strategiyası, sarsılmaz qətiyyəti, polad iradəsi, yorulmaz fəaliyyəti və xalqla iqtidar arasında olan sıx birliyin sayəsində planetimizin üzləşdiyi çoxsaylı qlobal çətinliklərə, ümumbəşəri ciddi və mürəkkəb problemlərə, həmçinin müharibədən yeni çıxmış ölkə olmağımıza rəğmən, respublikamızda iqtisadiyyat güclənir, bütün sahələrdə mütərəqqi islahatlar həyata keçirilir, regionların tarazlı inkişafının davamlılığı təmin olunur, hər bir istiqamət üzrə ardıcıl uğurlar əldə edilir ki, nəticədə, dövlətimiz daha da qüdrətlənir və doğma Azərbaycanımız durmadan çiçəklənir.

Azərbaycan dövləti, Azərbaycan xalqı cənab İlham Əliyevin rəhbərliyi altında gələcəyə, yüksəlişə və inkişafa doğru dahi şəxsiyyət Heydər Əliyevin əsasını qoyduğu yolla inamla irəliləyir və hər bir ölkə vətəndaşının fəxr edəcəyi, qürur duyacağı bir məkana çevrilir. Ötən illər aşkar şəkildə göstərdi ki, cənab İlham Əliyev öz fəaliyyət dövrünü bu amalın reallaşmasına həsr etmiş, Ulu Öndərimizin müstəqillik və azadlıq ideyalarını dönmədən həyata keçirmiş, Azərbaycanı sosial-iqtisadi inkişaf, demokratik hüquqi dövlət quruluğu və siyasi sabitlik baxımından dünyanın sayılıb-seçilən dövlətlərindən birinə çevirmişdir.

### *Xalqa əbədi Zəfər bəxş edən LİDER*

Xalqımız öz liderinin – Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin ətrafında sıx birləşərək müasir Azərbaycan tarixinin ən böyük uğurunu – bütün dünyaya öz gücünü, mətinliyini, mübarizliyini nümayiş etdirdi. Azərbaycan xalqı hansı səviyyədə uğurlu sərkərdəyə – Ali Baş Komandana sahib olduğunu aşkar gördü. 44 gün davam edən və işğal altındakı ərazilərimizin azad olunması ilə nəticələnən Vətən müharibəsi tariximizin ən parlaq səhifəsinə, Azərbaycan xalqının iftixar və qürur mənbəyinə çevrildi. Uzaqgörən lider İlham Əliyevin həyata keçirdiyi siyasətin nəticəsində Azərbaycanı 30 ilə yaxın davam edən münaqişədə qalib tərəfə çevirdi. Ərazi bütövlüyümüzün təminatını birmənalı olaraq təsdiq etdi. Prezident İlham Əliyev yalnız hərb meydanında müzəffər sərkərdə kimi deyil, diplomatik cəbhədə də böyük strateq nümunəsi ortaya qoydu, informasiya müharibəsində Azərbaycanın haqq səsi oldu, cəsarətlə bütün təzyiqlərə sinə gərdi, öz xalqı ilə vəhdətdə olan lider kimi mübarizlik rəmzinə çevrildi. Xalqımız öz dövlət başçısının xalqın, dövlətin maraqları naminə böyük qətiyyətini bir daha gördü. Cənab Prezidentin televiziya kanallarına verdiyi müsahibələr dünyanın dörd tərəfinə yayılan haqq səsimiz idi. Cənab Prezidentin dediyi kimi: ***"Biz heç kimin torpağına göz dikməmişik, heç kimin torpağında, Ermənistan ərazisində Azərbaycan hərbi birləşmələrinin heç bir hədəfi, heç bir məqsədi yoxdur. Ancaq biz öz torpağımızda özümüzü müdafiə edəcəyik və torpaqlarımızı işğaldan azad edəcəyik".*** Ümumilikdə, Azərbaycan Prezidentinin "Əl-Cəzirə", "Əl-Ərəbiyyə", "TRT Haber", "Pervıy Kanal", "CNN-Türk, "Evronyus" və sair televiziya kanallarına verdiyi müsahibələrdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, habelə cəbhə zonasındakı son hərbi əməliyyatlarla bağlı aydın, səlis, qətiyyətli fikirləri ölkəmizin haqlı mövqeyinin dünya ictimaiyyətinə çatdırılması baxımından müstəsna əhəmiyyət kəsb edir.

Zamanın gedişini haqqın ədalətin bərpası istiqamətində dəyişən müdrik lider və yenilməz sərkərdə İlham Əliyev dühasının Azərbaycana qazandırdığı möhtəşəm qələbə xalqa ən dəyərli ərməğan oldu.

Vətən müharibəsində əldə etdiyimiz qələbə Azərbaycan tarixində, Azərbaycan xalqının yaddaşında əbədi yaşayacaq. Prezident, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqı bu qələbə sayəsində qalib xalq kimi özünü dünyaya bəyan etdi. Ali Baş Komandan Ulu Öndər Heydər Əliyevin vəsiyyətini yerinə yetirərək xalqımıza özünün çoxəsrlik tarixində ən böyük uğuru və xoşbəxtliyi yaşatdı.

### *Böyük siyasi iradənin təcəssümü – Qarabağ və Şərqi Zəngəzura qayıdış*

Ermənistan 30 ilə yaxın işğal altında saxladığı Azərbaycan torpaqlarında xalqımızın mədəniyyətinə, irsinə, respublikamızın təbiətinə qarşı tarixdə görünməmiş vandallıq törədib. Bütün bunlar sivil dünyamızda ermənilərin timsalında barbarlığın şüuruna hakim kəsildiyi bir toplumun hələ də qaldığının real göstəricisidir. Vətən müharibəsinin başa çatmasından ötən qısa müddətdə Qarabağda və Şərqi Zəngəzurda aparılan bərpa və yenidənqurma işləri bütün məziyyətləri ilə yanaşı, dövlətimizin gücünün təsdiqidir. Qısa müddətdə nəhəng infrastruktur layihələrinin icrasının başa çatdırılması torpaqlarımızın xilaskarı Prezident cənab İlham Əliyevin böyük siyasi iradəsinin təcəssümüdür. Təkcə bir ildə Güləbird Su-Elektrik Stansiyasının, 7 yarımstansiyanın, Suqovuşan və Talışa gedən yolların istifadəyə verilməsi, Şuşanın su və elektrik təchizatının təmin edilməsi, Bülbülün ev-muzeyinin, Molla Pənah Vaqifin məqbərəsinin, o cümlədən büstünün, Üzeyir bəy Hacıbəylinin heykəlinin, "Xarıbülbül" və "Qarabağ" hotellərinin açılışı göstərdi ki, işğaldan azad edilmiş ərazilərimizin bərpası həm də kompleks xarakter daşıyır. Zəfər yolu, Beynəlxalq Hava limanları kimi nəhəng və möhtəşəm layihələrin başa çatdırılması isə müharibədən yeni çıxmış dövlətimizin gücünü bir daha bütün dünyaya nümayiş etdirdi. Qısa dövrdə bu cür iri infrastrukturların yaradılması haqlı olaraq bütün dünyada heyrət və maraq doğurur. Hazırda Qarabağ və Şərqi Zəngəzurda çoxsaylı layihələrin icrası davam edir.

Azərbaycanın Böyük Qayıdış planında işğal dövründə dağıdılmış şəhər və kəndlərin bərpası mühüm istiqamətlərdən biri kimi müəyyənləşdirilib. Böyük Qayıdışın ilk ünvanı Ağalı kəndi oldu. Cari ildə – Novruz bayramı ərəfəsində isə soydaşlarımızın Talışa köçü baş tutdu. Bundan sonra köç prosesi daha da intensivləşəcək. Hazırda ayrı-ayrı ünvanlarda şəhər və kəndlərin bərpası, yeni yaşayış məhəllələrinin salınması intensiv şəkildə davam etdirilir. Xanlıq, Mahruzlu, Zilanlı Qubadlı rayonunda ilkin mərhələdə təməli qoyulan kəndlər sırasında yer alır. Hər üç kəndin təməli Prezident cənab İlham Əliyevin iştirakı ilə qoyulub. Dövlətimizin başçısı regiona səfəri çərçivəsində Zəngilan və Cəbrayıl rayonlarında da inzibati binaların və ayrı-ayrı yaşayış məntəqələrinin təməlqoyma mərasimlərində iştirak edərək Özünün xeyir-duasını verib. Zəngilanın Cahangirbəyli kəndində birinci mərhələdə 1200 nəfərin məskunlaşdırılması nəzərdə tutulur. Cəbrayıl rayonunda təməli qoyulan Xudafərin qəsəbəsi Azərbaycan xalqı üçün tarixi əhəmiyyət daşıyan Xudafərin körpüsünün yaxınlığında, yeni dəmir yolu xəttindən və avtomobil yolundan 7 kilometr məsafədə salınır.

Prezident cənab İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 5-də Xocavənd və Füzuli rayonlarına səfərləri çərçivəsində təməli qoyulan mühüm layihələr bu bölgənin davamlı və sürətli inkişafını ehtiva edir. Qubadlı rayonunda dövlət başçısının iştirakı ilə 600 şagird yerlik tam orta

*Ardı 5-ci səhifədə*

# Heydər Əliyev İli 2023

məktəbin əsası qoyuldu. Dövlət başçımızın xeyir-duası ilə Qubadlı şəhərində 91 çarpayılıq Mərkəzi Xəstəxana binasının inşasına start verildi. Prezident cənab İlham Əliyevin iştirakı ilə təməli qoyulan daha bir xəstəxana Zəngilan rayonunda inşa olunacaq.

Böyük Zəfərdən sonra işğaldan azad edilən ərazilərdə tikilən Su Elektrik stansiyalarının ümumi sayı 25-ə çatdırılacaq və 200 meqavata yaxın ekoloji cəhətdən təmiz, hidro yaşıl enerji istehsal etmək mümkün olacaq. Bərpa-quruculuq proqramı çərçivəsində işğaldan azad edilmiş ərazilərin iqtisadi potensialından səmərəli şəkildə istifadə olunması da diqqət mərkəzində saxlanılır. Prezident cənab İlham Əliyev bəhs olunan ərazilərə növbəti səfəri çərçivəsində Cəbrayıl rayonunda "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkında "Avto Lizinq Azərbaycan" MMC-nin tikintisi ilə tanış olub, "Holcim Azərbaycan" ASC-nin, "Az-Tex-Import" MMC-nin, "Improtex Qarabağ Sənaye Kompleksi" MMC-nin müəssisələrinin təməllərini qoyub. Bu avtomobil və dəmir yolları Zəngəzur dəhlizi vasitəsilə Azərbaycandan Türkiyəyə və Türkiyədən Azərbaycana, eləcə də Azərbaycan ərazisindən Rusiyaya yüklərin daşınması üçün yeni əlverişli imkanlar yaradacaq.

Bəli, ermənilər 30 ili əhatə edən işğal dövründə ərazilərimizdə barbarlıq törədiblər, şəhər və kəndlərimizi dağıdıblar. İndi bu yerlərin əsl sahibləri qayıdıblar. Reallaşdırılan layihələr Azərbaycanın gücünü və xalqımızın bu yerlərə bağlılığını ifadə edir.

Bu yaxınlarda ADA Universitetinin təşkilatçılığı ilə Şuşada Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Böyük Avrasiya geosiyasətinin formalaşması: keçmişdən bu günə və gələcəyə" mövzusunda keçirilən dördüncü beynəlxalq konfransda Azərbaycanın region və dünyadakı roluna yenidən diqqət çəkildi. Həmçinin dövlətimiz üçün prioritet olan istiqamətlər bir daha yerli və beynəlxalq ictimaiyyətin nəzərinə çatdırıldı. Prezident cənab İlham Əliyevin çıxışı müasir Azərbaycan və dünya reallıqlarının təhlili baxımından ciddi əhəmiyyət kəsb edir. Konfransın Şuşada keçirilməsi və Prezident cənab İlham Əliyevin geniş məzmunlu çıxışı, ölkəmizdə və dünyada baş verənlərə strateji yanaşması, yerli və qlobal xarakterli problemlərin həlli yollarına dair təklifləri diqqətdən yayınmadı. Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanmasının vacibliyi Prezidentin çıxışında yer alan mühüm məqamlar sırasında idi. Dövlətimizin başçısı qeyd etdi ki, sülh müqaviləsinin imzalanması bütün regionda sabitliyin və təhlükəsizliyin təmini baxımından mühüm əhəmiyyətə malikdir. Dahi şəxsiyyətin 100 illiyinə həsr edilmiş beynəlxalq konfransda aparılan müzakirələr, Prezident cənab İlham Əliyevin hazırkı dövrün çağırışlarını özündə ehtiva edən cavabları Azərbaycanın möhkəm təməl üzərində daha möhtəşəm uğurlara, qələbələrə doğru inamla irəlilədiyini təsdiqlədi.

Göründüyü kimi, artıq Avropa ölkələrinin liderləri də İlham Əliyevi dünyanın aparıcı siyasətçiləri sırasında öz sözü, qətiyyətli mövqeyi olan dövlət başçısı və vədinə sadiq etibarlı tərəfdaş kimi qəbul edirlər. Bu da bir daha onu deməyə əsas verir ki, Lider İlham Əliyev qlobal təşəbbüsləri ilə Avrasiyanın enerji siyasətinə mühüm töhfələr verir. Avropanın əksər ölkələri isə cənab İlham Əliyevi müstəqil mövqeyi olan Prezident kimi çox yüksək dəyərləndirirlər. Prezident cənab İlham Əliyev hər zaman milli maraqlarımızı qətiyyətlə təmin edir və uzaqgörən qərarları ilə tarixinin ən qüdrətli Azərbaycanını böyük qürurla, fəxarətlə daha möhtəşəm gələcəyə aparır. Azərbaycan öz gücü hesabına azad olunmuş əraziləri tamamilə yenidən və müasir standartlara uyğun şəkildə qurur. Prezident cənab İlham Əliyevin də dediyi kimi: ***"Qarabağı da, Zəngəzuru da nümunəvi bir bölgə kimi quracağıq. Azərbaycan vətəndaşları orada rahat, firavan yaşayacaqlar. Dünya üçün də bir nümunə olacaq".***

### *Yüz minlərlə soydaşımızın taleyinə təsir göstərən tarixi sənəd – Böyük Qayıdışa dair I Dövlət proqramı*

Tarixi Zəfərimizdən sonra milli-strateji vəzifə kimi qarşımızda duran ən mühüm məsələlərdən biri xalqımızın uzun illərdir, gözlədiyi Böyük Qayıdışın reallaşdırılmasıdır. Prezident cənab İlham Əliyevin müvafiq Sərəncamı ilə təsdiqlənən "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda əks olunmuş "İşğaldan azad olunmuş ərazilərə Böyük Qayıdış" Milli Prioritetinin icrasının təmin edilməsi məqsədilə Dövlət proqramı hazırlanıb. Prezident cənab İlham Əliyevin 16 noyabr 2022-ci il tarixdə imzaladığı müvafiq Sərəncamla "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" təsdiqlənib. Azərbaycan işğaldan azad edilmiş ərazilərə üç onillik ərzində ağır qaçqınlıq və məcburi köçkünlük taleyi yaşamış soydaşlarımızın Böyük Qayıdışını qısa müddətdə və yüksək səviyyədə təmin etmək əzmindədir. Dövlət proqramında işğaldan azad edilmiş ərazilərdə aparılmış bərpa-quruculuq işləri və mövcud vəziyyət, nail olunması hədəflənən məqsədlər və onlara uyğun hədəf göstəriciləri, Dövlət proqramının prioritet istiqamətləri, əhalinin doğma torpaqlarına geri qayıdışı məsələləri, gözlənilən nəticələr, ehtimal edilən risklərin idarə olunması, müvafiq vəzifələrin yerinə yetirilməsi üçün maliyyələşmə mənbələri və həyata keçiriləcək tədbirlər öz əksini tapıb. Bir sözlə, qısa tarixi zaman kəsiyində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" üzrə nəzərdə tutulmuş tədbirlər uğurla həyata keçiriləcək və bütün məcburi köçkünlər öz doğma ata-baba yurdlarına qayıdacaqlar.

### *Azərbaycan: qlobal problemlərin həllinə təsir edə bilən ölkə*

Bu gün Avropa ölkələrinin liderləri cənab İlham Əliyevi dünyanın aparıcı siyasətçiləri sırasında öz sözü, qətiyyətli mövqeyi olan dövlət başçısı və vədinə sadiq etibarlı tərəfdaş kimi qəbul edirlər. Bütün bunlar onu deməyə əsas verir ki, Azərbaycanın çoxtərəfli və balanslaşdırılmış xarici siyasət kursunda dünyanın ən aparıcı ölkələri ilə strateji tərəfdaşlıq münasibətlərinin qurulması əsas prioritetlərdəndir. Yürüdülən bu müstəqil siyasət Azərbaycanın geosiyasi və geoiqtisadi çəkisini getdikcə yüksəldir.

Bu, tarixi reallıqdır ki, Azərbaycanın rolunu bütün dünyaya bəyan edən Davos İqtisadi Forumunda ildən-ilə Azərbaycana olan inam daha da artır. Bizim haqq sözümüz daha rahat qəbul edilir. Bu forum ərzində bir çox ənənəvi sazişlərə imza atılır, böyük layihələrin yol xəritəsi, təməli qoyulur. Bununla nüfuzlu xarici şirkətlərin ölkəmizə yatırdıqları investisiyaların sayı artır. Bu isə ölkəmizə olan inamın artması, siyasi və iqtisadi qüdrətimizin güclənməsi üçün çox vacibdir. İqtisadi xarakter daşımasına baxmayaraq, forum dünya siyasətində, beynəlxalq münasibətlərdə ciddi təsirə malikdir. Bu tədbir dünyanın iqtisadi mənzərəsinin formalaşdırılmasında önəmli rol oynayır. Burada təqdim edilən müasir texnologiyalar, irəli sürülən yeni fikirlər, təkliflər qlobal iqtisadiyyata yeni istiqamətlər verir. Son Davos səfəri zamanı Prezident cənab İlham Əliyev Çinin CGTN televiziya kanalına müsahibəsində Azərbaycanın Çin tərəfindən həyata keçirilən "Bir kəmər, bir yol" layihəsinə ilk gündən müsbət yanaşdığını vurğuladı. Ölkə başçısı qeyd etdi ki, 30 il ərzində davam edən siyasi münasibətlər artıq Çin və Azərbaycanın yaxşı tərəfdaş və birbirinə etibar edən dostlar olduğunu nümayiş etdirir. Azərbaycan Orta Dəhlizlə bağlı Çinin təşəbbüslərini dəstəkləyir. Bu gün Azərbaycan və Çin arasında iqtisadi və digər sahələrdə əməkdaşlıq əlaqələri durmadan artır.

Bu gün beynəlxalq investorlar Azərbaycana daha çox sərmayə yatırmağa can atır. Şübhəsiz ki, bütün bunlar dövlət başçısının düşünülmüş siyasəti nəticəsində mümkün olub. Ölkə Prezidentinin Davosda keçirdiyi görüşlər Azərbaycan iqtisadiyyatının gələcək inkişafı, şaxələndirilməsi üçün mühüm rol oynayır. Azərbaycan uzun illərdir ki, bu platformadan məharətlə istifadə edərək çox böyük iqtisadi dividentlər qazanır, öz imkanlarını dünyaya tanıdır. Son təmaslar xarici ticari əlaqələrimizi genişləndirəcək, ölkəmizə yeni investisiyalar gətirəcəkdir. Prezident cənab İlham Əliyevin Davosda apardığı müzakirələr gələcəkdə Azərbaycanın bir sıra dövlətlərlə əməkdaşlığına, eyni zamanda ölkəmizə yeni investisiyaların cəlbinə mühüm töhfə verəcək. Davos İqtisadi Forumu bir daha nümayiş etdirdi ki, böyük dövlətlərin liderləri Azərbaycanı özlərinə dost və tərəfdaş ölkə hesab edirlər və əməkdaşlıq məsələlərində ölkəmizin adının ilk sıralarda olmasını arzulayırlar.

Ölkə Prezidentinin Macarıstan səfəri isə bir daha göstərir ki, iqtisadi və geostrateji üstünlüklərindən səmərəli yararlanmaqla yüksək inkişaf mərhələsinə qədəm qoyan və Cənubi Qafqazın lider dövlətinə çevrilən Azərbaycan Macarıstan ilə münasibətlərin inkişafına xüsusi önəm verir. Bu səfər çərçivəsində imzalanmış sənədlər, xüsusilə də "Genişləndirilmiş strateji tərəfdaşlıq münasibətləri haqqında Birgə Bəyannamə" ilə Azərbaycanla Macarıstanın strateji tərəfdaşlıq münasibətləri daha da genişləndi və demək olar, bütün sahələri əhatə etməyə hüquqi zəmin yaratdı.

Hər iki dövlətin liderlərinin – həm Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin, həm Macarıstanın Baş Naziri Viktor Orbanın mətbuat üçün bəyanatlarında da qeyd olunduğu kimi, bizim enerji sahəsində əlaqələrimiz çox sürətlə inkişaf edir. Bu gün Azərbaycan Avropanın enerji ilə təminatında çox mühüm rol oynayır. Rusiya-Ukrayna müharibəsi bu rolu daha da gücləndirmiş oldu. Azərbaycana Avropa İttifaqında yeni alternativ enerj mənbəyi kimi baxırlar. Azərbaycan Avropa İttifaqının hər bir dövləti üçün arzu olunan dövlətdir. Cənab Prezidentin vurğuladığı kimi, bizi Macarıstanla təkcə enerji sahəsində əməkdaşlıq birləşdirmir, digər sahələrdə də əməkdaşlığımız mövcuddur və əməkdaşlığın yaxşı potensialı var. Bu gün hər iki dövlətin münasibətləri təkcə ikitərəfli formatla məhdudlaşmır. Beynəlxalq səviyyədə də biz bir-birimizin mövqeyini müdafiə edirik. Prezident cənab İlham Əliyevin Macarıstanın Baş Naziri Viktor Orbanla görüşünün yekunlarına dair mətbuata açıqlamasında da dediyi kimi: ***"Yaxın keçmişdə aşkarlanan böyük yaşıl enerji potensialı da Azərbaycanın önəmini daha da artırır. Əlbəttə ki, yaşıl enerji ilə bağlı olan və artıq icra olunan layihələr bizi Avropa üçün daha da yaxın edəcək".***

Eyni zamanda Macarıstanın öz tarixi köklərinə qayıdaraq, türk ölkələri ilə əlaqələrin qurulmasında maraqlı olması, gələcəkdə Türk Dövlətləri Təşkilatına üzv olmağı planlaşdırması bu münasibətlərin gələcəkdə daha da yüksələcəyini göstərir. Prezident cənab İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın Macarıstan səfəri bir daha göstərdi ki, Azərbaycana Avropa qitəsində böyük etimad var. Ölkə başçımızı həm mahir diplomat, həm də nəhəng dövlət xadimi kimi qiymətləndirirlər. Azərbaycan və Macarıstan arasında olan dostluq əlaqələri həm ölkələrimiz, həm Avrasiya qitəsi üçün çox böyük önəm daşıyır.

Münhendə "Dialoq vasitəsilə sülh" şüarı altında yenidən toplanan Təhlükəsizlik Konfransının sonuncu missiyası da dövlət və hökumət başçıları, siyasətçilər, parlamentarilər, araşdırma mərkəzləri, media və beynəlxalq təhlükəsizlik sahəsində ixtisaslaşan təşkilat və mütəxəssislər arasında davamlı və qeyri-rəsmi dialoq yaratmaqla qlobal və regional problemlərin, münaqişələrin həllinə töhfə vermək idi.

Bu konfransa ölkəmizin başçısının ali qonaq kimi dəvət olunması dövlətimizin yüksək nüfuzunun və mövqeyinin göstəricisi, Azərbaycanın dünyada sülh tərəfdarı olduğunun bir daha təsdiqi və sübutudur. O da xüsusi vurğulanmalıdır ki, Prezident cənab İlham Əliyev builki Münhen Təhlükəsizlik Konfransına dəvət olunan və diqqət mərkəzində olan çox az sayda dövlət başçılarından biridir.

Münhen Təhlükəsizlik Konfransının təşkilatçıları hesab edirlər ki, İlham Əliyev kimi uğurlu Liderin fikir və yanaşmaları beynəlxalq birlik üçün olduqca əhəmiyyətlidir. Bunun nəticəsidir ki, beynəlxalq birlik Prezident cənab İlham Əliyevi strateji baxışlara malik mahir diplomat kimi qəbul edir.

Ölkə rəhbəri Prezident cənab İlham Əliyevin konfransın əsas proqramı çərçivəsində Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel ilə görüşü, "Enerji təhlükəsizliyi" mövzusunda dəyirmi masada və "Dağları aşmaq? Cənubi Qafqazda təhlükəsizliyin qurulması" mövzusunda plenar iclasda iştirakı, ABŞ-ın Dövlət katibi Antoni Blinken və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan ilə birgə görüşü, eləcə də səfər çərçivəsində keçirdiyi görüşlər, müzakirələr dövlətimizin xarici siyasət kursunun çoxşaxəli əlaqələrinin nəticəsi kimi qəbul edilməklə yanaşı, Azərbaycanın Avropa İttifaqı üçün etibarlı tərəfdaş olduğunun bir daha sübutu idi.

Sonuncu panel müzakirəsində Ermənistanın baş naziri Nikol Paşinyanın iştirakdan imtina etməsi, görünür, Paşinyanın 2020-ci ildə Münhendə onun üçün utancverici məğlubiyyəti və biabırçılığı yenidən yaşamamaq istəyindən irəli gəlib. Xatırladaq ki, həmin debatda dünyanın gözü qarşısında dövlətimizin başçısı tarixi faktlara, siyasi və beynəlxalq hüquqi sənədlərə əsaslanan tutarlı arqumentlərlə erməni tərəfinin əsassız və savadsız şərhlərinə cavab verdi, tarixi həqiqətin, beynəlxalq hüququn normalarının Azərbaycanın tərəfində olduğunu, dövlətimizin mövqeyinin üstünlüyünü nümayiş etdirdi, ermənilərin əsassız iddialarını beynəlxalq müstəvidə alt-üst etdi. Bu toplantıdan cəmi bir neçə ay sonra isə 44 günlük Vətən savaşında Azərbaycanın şanlı qələbə çalması Paşinyana və dünya ermənçiliyinə verilən tarixi dərs oldu.

Bir sözlə, Ali Baş Komandanın 59-cu Münhen Təhlükəsizlik Konfransında ortaya qoyduğu mövqe, siyasi iradə, dövlətimizin dünya miqyasında bir çox istiqamətdə növbəti beynəlxalq qələbəsi kimi yazıldı. Beləliklə, bu gün dövlət başçısı cənab İlham Əliyevin hərtərəfli siyasəti sayəsində Azərbaycan təkcə regional iştirakçı deyil, həm də qlobal problemlərin həllinə təsir edə bilən bir ölkədir. Azərbaycan Liderinin artmaqda olan nüfuzu Azərbaycanın siyasi gücünü də artırmaqla yanaşı, ölkəmizi bir çox sahələrdə Avropa qitəsi üçün vacib, əvəzolunmaz və etibarlı tərəfdaşa çevirib.

### *Yeni reallıqlar fonunda Azərbaycan regiona davamlı inkişaf bəxş edir!*

Azərbaycan bu gün tarixinin ən qüdrətli dövrünü yaşayır. Dünya artıq ölkəmizi regionun lideri, qlobal layihələr həyata keçirən, islahatlar aparan, əməkdaşlığa və Avropanın enerji təhlükəsizliyinə əhəmiyyətli töhfələr verən etibarlı tərəfdaş kimi qəbul edir. Son 20 ildə cənab İlham Əliyevin yürütdüyü müstəqil siyasətlə Azərbaycan xarici əlaqələrini, siyasi-iqtisadi, hərbi, humanitar və digər sahələrdə müttəfiqlərini, əməkdaşlıq etdiyi ölkə və beynəlxalq təşkilatları özü seçir. Təbii sərvətlərinin sahibi kimi enerji sahəsində əməkdaşlıq əlaqələrini dövlət maraqları və qarşılıqlı faydalılıq prinsipləri əsasında reallaşdırır. Digər tərəfdən, Azərbaycan bölgədə və beynəlxalq səviyyədə əməkdaşlığa, təhlükəsizliyə mühüm töhfələr verir. Məhz bütün bunlara görə dünya siyasətinin aparıcı qurumları, həmçinin mötəbər beynəlxalq təşkilatlar Azərbaycanın mütərəqqi xarici siyasətini regional təhlükəsizlik və qlobal inkişafa mühüm töhfə kimi qiymətləndirirlər və ölkəmizlə əməkdaşlığa böyük önəm verirlər.

Azərbaycanın mühüm geosiyasi uğurlarından biri dünya birliyində güclü mövqeyə malik olması, beynəlxalq aləmdə söz sahibinə çevrilməsidir. Prezident cənab İlham Əliyevin həyata keçirdiyi siyasi kurs respublikamızı inkişaf yoluna çıxarmaqla yanaşı, regional və beynəlxalq miqyasda nüfuzunu daha da artırıb. Azərbaycan dünyanın sayılıb-seçilən, hörmət olunan, etimad göstərilən dövlətinə çevrilib. Ona görə bir sıra dövlətlər, o cümlədən Avropa İttifaqının üzvləri Cənubi Qafqazın lideri olan Azərbaycanla strateji tərəfdaş olduqlarını elan ediblər.

Son vaxtlar ölkə Prezidenti cənab İlham Əliyevin Avropa liderlərinin dəvəti ilə ən mötəbər tədbirlərə dəvət alması, yüksək tribunalardan çıxışı, ən yüksək səviyyədə qarşılanması ölkəmizin artan nüfuzunun bariz nümunəsidir. İstər Davos İqtisadi Forumu, istər Macarıstana olan səfər, istərsə də Münhen Təhlükəsizlik Konfransında iştirak bir daha sübut etdi ki, Avropa ölkələri Azərbaycanla əməkdaşlığa yüksək önəm verir, Prezident cənab İlham Əliyevi Avropa üçün ən önəmli LİDER hesab edirlər.

**Arzu ABDULLAYEV**
***Naxçıvan Dövlət Universitetinin Sosial məsələlər və ictimaiyyətlə əlaqələr üzrə prorektoru, tarix üzrə fəlsəfə doktoru***

# Heydər Əliyev İli

100

*"Heydər Əliyev İli" çərçivəsində muxtar respublikamızda keçirilən bir-birindən rəngarəng tədbirlər xalqımızın dahi oğluna və ən böyük Azərbaycanlıya dərin minnətdarlığın, ehtiram və məhəbbətin bariz ifadəsi kimi tariximizin yeni səhifəsini yazır. Biz də "Şərq qapısı" qəzeti olaraq həmişə mətbuata böyük dəyər vermiş və qayğı göstərmiş Ulu Öndərin mənalı həyat yolu və ictimai-siyasi fəaliyyətinin müxtəlif sahələri haqqında yazılar hazırlayaraq oxucularımıza təqdim edirik. Bu gün təqdim etdiyimiz yazı isə muxtar respublika ziyalılarının bir qrupu ilə redaksiyamızda təşkil etdiyimiz görüşdən hazırlanıb. AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyevin, Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Asim Yadigarın, Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının sədri, dosent, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Elman Cəfərlinin, Naxçıvan Dövlət Universitetinin Sosial məsələlər və ictimiayyətlə əlaqələr şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru Arzu Abdullayevin iştirak etdikləri görüşü qəzetin məsul katibi, Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti Muxtar Məmmədov aparıb.*

Dəyirmi masa

## Müstəqil Azərbaycanın siyasi zəfərlər epopeyası

***Muxtar Məmmədov: – Söhbətimizə dünya siyasətçilərindən birinin sözləri ilə başlamaq istərdim. Azərbaycan xalqı xoşbəxtdir ki, onun Heydər Əliyev kimi böyük iradəyə, zəngin dövlətçilik təcrübəsinə malik, müdrik, uzaqgörən, nüfuzlu dövlət xadimi var...***

***İsmayıl Hacıyev:*** – Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ölkəmizdə 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında Sərəncamına əsasən görkəmli dövlət xadiminin 100 illik yubileyi respublikamızda, eləcə də bir sıra xarici ölkələrdə də yüksək səviyyədə qeyd olunur. Çünki Ulu Öndər Heydər Əliyev dünya şöhrətli siyasi xadim olmaqla yanaşı, həm də xalqımızın yaddaşında daim müdrik lider, müasir müstəqil Azərbaycanın qurucusu kimi yaşayır. Onun adı dövrünün ən nüfuzlu siyasətçiləri ilə bir sırada çəkilir. Dahi Öndər iki dövrdə – həm sovet, həm də müstəqillik dövründə Azərbaycana rəhbərlik etmişdir. O, sovet dövründə geridə qalmış Azərbaycanı ittifaq daxilində inkişaf edən ölkələrdən birinə çevirmişdir. Müstəqillik illərində də Ümummilli Liderimiz doğma Vətənin xilası naminə misilsiz fədakarlıqlar göstərmiş, ölkəmizi xaos və anarxiyadan qurtarmış, dövlətimizi dayanıqlı inkişaf yoluna çıxarmışdır. Başqa sözlə, respublikamızı hər cür qəsdlərdən qorumuş, onun müstəqilliyini əbədi və dönməz etmişdir.

Prezident cənab İlham Əliyev Ulu Öndərin həlledici anlarda böyük liderlik göstərərək xalqımızı xilas etməsi haqqında danışarkən demişdir: ***"Heydər Əliyev dahi şəxsiyyət, uzaqgörən lider, cəsarətli insan idi. O öz həyatını doğma xalqına həsr etmişdir. Bütün dövrlərdə xalqa ləyaqətlə, sədaqətlə xidmət etmişdir. Cəmiyyətin ictimai-siyasi quruluşundan asılı olmayaraq, Heydər Əliyev bütün dövrlərdə xalqın dəstəyini hiss edərək Azərbaycanı inamla irəliyə aparırdı. Sovet dönəmində və müstəqillik dövründə Azərbaycan üçün, xalqımız üçün ən həlledici anlarda Heydər Əliyevin liderlik keyfiyyətləri, onun müdrikliyi, düşünülmüş siyasəti və cəsarətli addımları xalqımızı böyük bəlalardan xilas etmişdir. Xalq ona inanırdı, onu sevirdi və bütün dövrlərdə ona arxa-dayaq olmuşdur".***

***Muxtar Məmmədov: – Elə bu fəaliyyəti də onun daha yüksək vəzifəyə aparılmasına səbəb oldu; dahi rəhbər Moskvada siyasi fəaliyyətini davam etdirməyə başladı...***

***İsmayıl Hacıyev:*** – Böyük siyasi iradəyə, sarsılmaz əqidəyə malik olan qüdrətli dövlət xadimi Heydər Əliyevin dövlət idarəçiliyi istedadı onun SSRİ-nin rəhbərlərindən biri kimi çalışdığı illərdə özünü bir daha parlaq şəkildə təzahür etmişdir. O, 1976-cı ilin mart ayında Sov. İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ilin noyabrında isə Siyasi Büro üzvü seçilmiş, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin olunmuşdur. Nazirlər Soveti sədrinin birinci müavini kimi Ulu Öndər 60-dan çox nazirlik, komitə və müxtəlif mərkəzi idarələrin fəaliyyətinə rəhbərlik edərkən qeyri-adi istedada, dərin biliyə, analitik təfəkkürə, sarsılmaz iradəyə, böyük idarəetmə məharətinə malik olduğunu təsdiq etmişdir.

SSRİ Nazirlər Soveti sədrinin birinci müavininin köməkçisi vəzifəsində çalışmış Y.Soloduxinin fikri deyilənləri təsdiq edir: *"O zamana qədər mən elə bilirdim ki, çox şey bilirəm. Lakin Heydər Əliyevlə görüşəndən, onunla birgə çalışandan sonra başa düşdüm ki, mənim bəxtim gətirib ki, böyük dövlət təcrübəsi olan adamla birlikdə çalışmışam. Dövlət adamında liderlik, idarəçilik, bilik və bir çox digər keyfiyyətlər olmalıdır. Müdriklik isə o keyfiyyətdir ki, rəhbər şəxs uzağı, gələcəyi görə bilir. Məncə, Heydər Əliyev məhz bütün bu keyfiyyətlərə malik bir rəhbər, dövlət adamı idi. Siyasətçi sözü isə Heydər Əliyevə tam yaraşan, tam uyğun olan sözdür. Deyərdim ki, o, siyasətçidən də artıq idi. XX əsrdə Sovetlər İttifaqı ərazisində Heydər Əliyev miqyasında rəhbər, dövlət adamı çox az idi, bəlkə də, yox idi. XX əsrin 60-cı illərindən 2000-ci illərin əvvəllərinə qədər – 40 il ərzində Heydər Əliyev SSRİ məkanında ilk üçlüyə daxil olan ən qüdrətli şəxsiyyət idi".*

*"Heydər Əliyevin zəngin həyat yolu və müstəsna fəaliyyətinin bütün mərhələləri bir-birini tamamlamış, öz xalqına sıx bağlılığın, milli dövlətçilik məfkurəsinə sadiqliyin canlı təcəssümü olmuşdur. Geniş bilik və dərin təfəkkür sahibi olan Heydər Əliyev düşünülmüş və cəsarətli qərarları ilə təkcə müstəqillik dövründə deyil, bütün dövrlərdə Azərbaycan ictimaiyyətini ən ciddi şəkildə düşündürən məsələləri uğurla həll etmişdir. Ulu Öndər cəmiyyət həyatının müxtəlif sahələri arasında üzvi bağlılığı aydın görərək, müəllifi olduğu milli inkişaf strategiyasında ictimai, siyasi, sosial, iqtisadi, mədəni və digər sahələrdə qarşıda duran vəzifələri düzgün müəyyənləşdirmiş və məharətlə həyata keçirmişdir".*

***"Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında" Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 2022-ci il 29 sentyabr tarixli Sərəncamından***

"Siyasi Büronun ikinci adamı" hesab edilən bu dahi şəxsiyyət dünyanın ən nüfuzlu siyasətçisi kimi super dövlətin idarə edilməsində, onun daxili və xarici siyasətinin müəyyənləşdirilməsində həlledici söz sahibi idi. O, dünya miqyaslı siyasətçi kimi qəbul edilmiş və yüksək qiymətləndirilmişdir. Təsadüfi deyildir ki, onu beynəlxalq aləmdə "siyasət patriarxı", "siyasət qrossmeysteri", "canlı əfsanə", "dahi prezident", "zəmanəmizin qəhrəmanı" kimi epitetlərlə dəyərləndirmişlər. Heydər Əliyev tutduğu bütün vəzifələrdə özünü beynəlxalq miqyaslı siyasətçi, zəkalı rəhbər kimi göstərmiş, zəmanəmizin görkəmli liderlərindən biri kimi özünü təsdiq etmişdir. Ulu Öndər iti ağlı, güclü məntiqi, fenomen yaddaşı olan qüvvətli bir şəxsiyyət, sözün həqiqi mənasında, fenomenal insan idi.

Siyasət nəhəngi, dünya siyasətinə təsir etmək gücündə olan dahi Heydər Əliyev dünyəvi dəyərli bir insan, ölkə rəhbəri, güclü siyasətçi idi. Belə bir insan haqqında dünyanın məşhur siyasət xadimləri, dövlət başçıları qiymətli fikirlər söyləyiblər. Amerika Birləşmiş Ştatlarının sabiq prezidenti B.Klinton deyirdi: *"O nəinki Azərbaycanı və Amerikanı, bütün dünyanı idarə edə bilən dövlət xadimlərindən biridir"*. D.Kunayevin sözlərini də xatırlamaq yerinə düşər: "Heydər Əliyev Türk dünyasının, bəlkə də, bütün dünyanın ən müdrik və qeyrətli şəxsiyyətidir". Onun siyasəti təkcə yaşadığı dövrə yox, gələcəyə yönəlmişdi. Və belə siyasi və dövlətçilik fəaliyyəti nəsillərə örnəkdir.

***Muxtar Məmmədov: – 1992-ci il oktyabrın 16-da 91 nəfər ziyalının Heydər Əliyevə ünvanladığı, əslində, bütün xalqın ən aktual istəyinin ifadəsi olan müraciətdə deyilirdi: "Dövlət quruculuğundakı çoxillik təcrübənizə əsaslanaraq Siz qısa müddətdə Azərbaycanda geniş xalq kütlələrini özündə birləşdirə biləcək böyük, güclü, nüfuzlu və işlək partiya yarada bilərsiniz. Öz adımızdan və on minlərlə respublika vətəndaşı adından Sizdən xahiş edirik ki, təşəkkül tapan Yeni Azərbaycan Partiyasına rəhbərlik etməyə razılıq verəsiniz. Azərbaycan Sizin sözünüzü və qəti qərarınızı gözləyir".***

***Elman Cəfərli:*** – Görkəmli dövlət xadimi Heydər Əliyev "91"-lərin müraciətinə 24 oktyabr 1992-ci il tarixdə imzaladığı və "Səs" qəzetində çap etdirdiyi "Yeni müstəqil Azərbaycan uğrunda" adlı cavab məktubunda ölkəmizin qarşısında duran fundamental və təxirəsalınmaz vəzifələri müəyyənləşdirərək Yeni Azərbaycan Partiyasının yaradılmasının zəruriliyini bildirdi və onun fəaliyyətində iştiraka hazır olduğunu bəyan etdi. Ulu Öndər cavabında Azərbaycanın müharibə vəziyyətindən çıxarılması və Qarabağ probleminin tezliklə həll olunması; Azərbaycanda mövcud sosial-iqtisadi böhranın aradan qaldırılması və iqtisadi inkişafa nail olunması; ölkədə məqsədyönlü kadr siyasətinin həyata keçirilməsi; qanunun aliliyi prinsipinin və demokratik azadlıqların təmin edilməsi; ölkənin parçalanmasının qarşısının alınması, respublikada yaşayan bütün xalqların iştirakı ilə vahid, bütöv Azərbaycanın qorunub saxlanması və inkişaf etdirilərək möhkəmləndirilməsi kimi həmin tarixi dövrdə qısa zamanda həll edilməsi zəruri olan ictimai-siyasi və dövlətçilik məsələlərini ifadə etməklə, əslində, müstəqil Azərbaycanın inkişafı konsepsiyasını irəli sürmüşdü. ***"Güman edirəm ki, müstəqil Azərbaycan dövlətinin gələcək həyatının və fəaliyyətinin əsasını təşkil edən demokratiya və siyasi plüralizm şəraitində Sizin müraciətinizdə göstərilən Yeni Azərbaycan siyasi Partiyasının yaradılması obyektiv zərurətdən doğur. Belə partiya Azərbaycanın siyasi-ictimai həyatında fəal iştirak edərək yeni, müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsində və inkişafında tarixi rol oynaya bilər. Əgər belə partiya yaradılarsa, onun fəaliyyətində fəal iştirak etməyə hazıram",*** – deyən dahi lider Yeni Azərbaycan Partiyasının yaradılmasına və ona rəhbərlik etməyə razılıq verməklə, sözün əsl mənasında, Azərbaycan dövlətçiliyinin taleyinin müsbət məcraya istiqamətləndirilməsi qərarını vermiş oldu.

1992-ci il noyabrın 21-də Naxçıvan şəhərində ölkənin ayrı-ayrı regionlarından olan və əhalinin müxtəlif təbəqələrini təmsil edən 550 nümayəndənin iştirakı ilə Yeni Azərbaycan Partiyası təsis edildi. Partiyanın yaranması, Ümummilli Lider Heydər Əliyevin partiyaya sədr seçilməsi respublikanın ozamankı gərgin, təhlükəli ictimai-siyasi vəziyyətin getdikcə daha da ağırlaşmasından irəli gələn zəruri tarixi hadisə idi. Ozamankı hakimiyyət dairələrinin Yeni Azərbaycan Partiyasının yaranmasına göstərdikləri maneələr, ardıcıl təzyiqlər bu yola qədəm qoyan insanların əzm və iradəsini qıra bilmədi. Bütün uzaqgörən insanlar Heydər Əliyevin rəhbəri olduğu bu qurumun xilaskar bir missiya üçün yarandığını duyur və Yeni Azərbaycan Partiyasına dəstəklərini əsirgəmirdilər. Həmin dövrü Ulu Öndər belə xatırlayırdı: ***"Yeni Azərbaycan Partiyası Azərbaycanda gedən ictimai-siyasi proseslərin içərisindən çıxan zərurətdir... Yeni Azərbaycan Partiyasının fərqi ondan ibarətdir ki, bu partiya onu yaratmaq, siyasi fəaliyyətlə məşğul olmaq istəyən adamların istəkləri ilə, bir təşkilati mərkəz olmadan... ağır şəraitdə böyük təqiblər şəraitində yaranmış bir partiyadır".***

***Muxtar Məmmədov: – İlk günlərdən göstərdiyi fəaliyyət bu partiyanın yaradılmasının o dövrün mövcud problemlərindən və gözlənilən fəlakətlərdən xilas edilməsində ən doğru yol olduğunu göstərdi.***

***Elman Cəfərli:*** – Xalqın Ulu Öndərimiz Heydər Əliyevə olan inamı tez bir zamanda siyasi səhnədə parlayan Yeni Azərbaycan Partiyasının tarixi məsuliyyəti öz üzərinə götürməsinə imkan verdi. Ümummilli Liderimizin nüfuzu, Azərbaycan xalqının göstərdiyi böyük etimad partiyanın qısa müddət ərzində təşkilatlanmasına, ölkənin bütün regionlarında özəklərini qurmasına və 1993-cü ildə hakimiyyətə gəlməsinə şərait yaratdı.

Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı partiyanın inkişafı tarixində də yeni bir mərhələnin əsasını qoydu. Partiya və onun yüz minlərlə üzvü dövlət əhəmiyyətli məsələlərin həlli istiqamətində öz gücünü səfərbər etdi. Yeni Azərbaycan Partiyasının sənədlərində əksini tapmış Azərbaycan dövlətçiliyinin təməl prinsiplərini özündə əks etdirən yeni Azərbaycançılıq ideologiyasının cəmiyyətə təqdimatı və Ulu Öndərin müəllifi olduğu bu ideologiyanın uğurla həyata keçirilməsi də partiyanın öz tarixi inkişaf yolunda Azərbaycan xalqına, dövlətinə bəxş etdiyi ən qiymətli töhfələrdəndir.

Görkəmli dövlət xadiminin əsasını qoyduğu Yeni Azərbaycan Partiyası nəinki ölkənin, regionun aparıcı siyasi təşkilatıdır. Partiya sıralarında bu gün 770 mindən çox üzvün birləşməsi Ulu Öndər Heydər Əliyev ideyalarına sədaqətin, Prezident cənab İlham Əliyevin həyata keçirdiyi siyasətin gələcəyinə inamın göstəricisidir. Partiyanın statusu yeni şəraitə uyğun olaraq dəyişmiş, ölkənin siyasi həyatında tutduğu mövqeyi möhkəmləndirilmiş, kütləvi siyasi qüvvəyə çevrilərək ictimai həyatın bütün sahələrində tərəqqiyə nail olmaq məqsədilə yüksək fəallıq nümayiş etdirilmişdir. Partiyanın 30 ildə qazandığı uğurların təməlində sözlə əməl birliyinin rolu inkaredilməzdir. Ölkədə keçirilən bütün seçki proseslərindən uğurla çıxan Yeni Azərbaycan Partiyası qələbələr partiyası kimi nüfuz qazanmışdır. Partiya populist vədlərdən uzaq olduğunu atdığı addımları, əldə etdiyi nailiyyətləri ilə təsdiqləyir. Bu günümüzün uğurları gələcəyə daha böyük inamla irəliləməyə əsas verir.

***Muxtar Məmmədov: – Arzu müəllim, dünyanın bütün inkişaf etmiş ölkələri bu səviyyəyə yüksəlməkdə keçən yolun təməlində elm və təhsilin dayandığını başlıca səbəb kimi dəyərləndirirlər. Görkəmli dövlət xadimi Heydər Əliyevin bu istiqamətdə reallaşdırdığı tədbirlər məhz ölkənin inkişaf etmiş dünya ölkələri sırasına çıxması ilə bağlı idi. Və bu gün dönüb geriyə baxanda inkişaf və tərəqqimizin bünövrəsinin hələ ötən əsrin 70-ci illərində qoyulduğunu görürük...***

***Arzu Abdullayev:*** – XX əsrin sonlarında yenidən müstəqillik qazanmaq kimi tarixi fürsəti əldə edən Azərbaycan qısa vaxtdan sonra onun itirilməsi təhlükəsi ilə üzləşdi. Ölkədə hakimiyyət böhranı 1993-cü ilin iyununda kulminasiya həddinə çatdı, xaos və anarxiya respublikanı bürüdü. Vətəndaş müharibəsi dərəcəsinə yüksəlmiş qarşıdurma nəinki dövlət müstəqilliyimizi, hətta milli varlığımızı belə birbaşa hədəfə aldı. Təsadüfi deyil ki, 1991-1993-cü illər ölkəmizin müasir tarixində hərc-mərclik, özbaşınalıq dövrü kimi xatırlanır. Bir tərəfdən də Azərbaycan torpaqlarının Ermənistan silahlı qüvvələri tərəfindən davamlı işğalı, getdikcə gərginləşən siyasi vəziyyət, əhalinin gündən-günə ağırlaşan sosial durumu ölkəni bu bəlalardan xilas edə biləcək, xalqı öz arxasınca aparmağa qadir liderə ehtiyac olduğunu şərtləndirirdi. Beləliklə, 1993-cü il iyunun 9-da Ulu Öndər Heydər Əliyev xalqın çağırışına səs verərək doğma Naxçıvandan Bakıya getdi. Daha dəhşətli hadisələrin gözlənildiyi ölkəmizi bəlalardan, müsibətlərdən xilas etdi.

Ardı 7-ci səhifədə

# Heydər Əliyev İli 2023

Həmin gün, sözün həqiqi mənasında, ölkəmizin taleyində dönüş anı oldu, Böyük Qurtuluşa doğru mühüm addım atıldı. Xalqımızı nicata aparan yol bilavasitə həmin gündən başlandı.

Ulu Öndər yenidən hakimiyyətə qayıtdıqdan sonra bütün sahələrə, o cümlədən elm və təhsilə diqqət və qayğı daha da artdı. Bu, təsadüfi deyildi. Çünki bu dahi şəxsiyyət yaxşı bilirdi ki, Azərbaycanın tərəqqisinin yeganə yolu məhz xalqın yüksək təhsil almasında, maariflənməsindədir. Məhz buna görə də Ümummilli Liderimizin rəhbərliyi ilə respublikamızın iqtisadi potensialının gücləndirilməsi elm və təhsilin inkişafı ilə paralel aparılırdı. Dahi öndərin rəhbərliyi dövründə illər Azərbaycanın tarixinə elmin və təhsilin tərəqqi dövrü kimi daxil oldu. Ümummilli Liderimizin ölkənin rəhbərliyinə gəlməsi ilə respublikanın ictimai, siyasi, təsərrüfat, mədəni, elm və təhsil həyatında da bir canlanma başlandı.

Görkəmli dövlət xadimi hakimiyyətdə olduğu müddətdə Azərbaycan elminin inkişafına, əldə olunan elmi nəticələrin dünya miqyasında tanıdılmasına xüsusi diqqət göstərmiş, bu istiqamətdə məqsədyönlü tədbirlər həyata keçirilmişdir. Ulu Öndərin Azərbaycan elminə dair təşəbbüsləri, həyata keçirdiyi tədbirlər və geniş islahatlar bu böyük şəxsiyyətin Vətənimiz və xalqımız qarşısında ən mühüm tarixi xidmətlərindəndir. O, Azərbaycanda çoxəsrlik ənənəsi olan elmin yenidən inkişaf etdirilməsinin əsas istiqamətlərini müəyyən etmiş, onun möhkəm təməllərini yaratmışdır.

***Muxtar Məmmədov: – Ulu Öndərin yürütdüyü siyasət yalnız elm tarixinin öyrənilməsi, yaxud ayrı-ayrı görkəmli alimlərin xidmətlərinin qiymətləndirilməsi ilə məhdudlaşmamışdır...***

***Arzu Abdullayev:*** – Dahi rəhbər, ilk növbədə, Azərbaycanın intellektual sabahını düşünmüş, respublikada formalaşdırdığı zəngin elmi potensiala istinad edərək özünün mükəmməl elm və təhsil konsepsiyasını irəli sürmüş, milli tərəqqi baxımından strateji əhəmiyyət daşıyan bu sahənin problemlərini, xüsusilə diqqət mərkəzində saxlamışdır. Ümummilli Liderin elm və təhsilin konsepsiyasının əsas qayəsini müstəqilliyin daha da möhkəmləndirilməsi, demokratik və hüquqi cəmiyyət quruculuğu prosesinin yüksək dinamizmlə həyata keçirilməsi, dövlətin iqtisadi potensialının gücləndirilməsi kimi ümdə prinsiplər təşkil etmişdir. Ulu Öndər Azərbaycanda bütün sahələrdə olduğu kimi, elm və təhsil sahəsində də uğurlu islahatların müəllifi kimi tanınmışdır.

Bu gün Azərbaycanda hər bir sahədə müşahidə olunan inkişaf tendensiyası təhsil sektorunda xüsusilə diqqəti cəlb edir. Bu inkişafın əsasında isə, şübhəsiz, dahi rəhbərin ideyaları və həmin ideyalar əsasında həyata keçirilən siyasətin strateji kursu dayanır. Həmin strateji kursdur ki bünövrəsi müasir Azərbaycan Respublikasının memarı, Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyularaq Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Son 20 ildə Müzəffər Ali Baş Komandan, Prezident cənab İlham Əliyevin təhsil sistemi qarşısında duran əsas vəzifələri müəyyənləşdirərək Azərbaycançılıq ideologiyasının təbliği, Azərbaycan dilinə, ədəbiyyatına, tarixinə, mədəniyyətinə məhəbbət, milli-mənəvi dəyərlərə hörmət hissinin aşılanması, təhsil müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi, respublikanın hər yerində məktəb tikintisinin geniş vüsət alması bu günümüzün reallıqlarıdır. Bu sahədə həyata keçirilən hər bir islahat, baş verən hər bir hadisə, ilk növbədə, Azərbaycanın parlaq gələcəyinə hesablanıb.

***Muxtar Məmmədov: – Ulu Öndərimiz deyirdi: "Ədəbiyyatımız bizim böyük milli sərvətimizdən biridir. Biz bununla fəxr etməliyik. Şəxsən mən həmişə belə hesab etmişəm. Bu gün də belə hesab edirəm, daim belə düşünəcəyəm".***

***Asim Yadigar:*** – Ömrü boyu Azərbaycan ziyalılarının qayğısını çəkən, ədəbiyyatımızı, mədəniyyətimizi, incəsənətimizi böyük övlad sevgisi ilə yorulmadan təbliğ edən Ümummilli Liderimiz xalqını, Vətənini daha çox sevən, onun hər uğuruna ürəkdən sevinən ən böyük Azərbaycanlı, ölkəmizin bütün sahələrdə yeni uğurlar qazanmasında misilsiz xidmətlər göstərən dahi şəxsiyyət idi. Ötən əsrin 70-80-ci illəri Azərbaycan ədəbiyyatının və mədəniyyətinin, iqtisadiyyatının, təhsil və səhiyyəsinin, bir sözlə, Azərbaycanın sürətli inkişaf dövrü kimi tarixin yaddaşına həkk olunub. Məhz bu illər Azərbaycan xalqının min illərboyu yetirdiyi böyük tarixi şəxsiyyətlərin bir daha dünya xalqlarına yenidən tanıdıldığı dövrdür.

Ədəbiyyata qayğı, diqqət Ulu Öndərin daimi işi idi. 1977-ci ildə Azərbaycanda "Yazıçı" nəşriyyatının yaradılması Onun Azərbaycan yazıçılarına ən böyük qayğısı idi. Şüvəlanda yazıçıların yaradıcılıq evi tikildi. Şuşada 80-ci illərin əvvəllərində Molla Pənah Vaqifin əzəmətli məqbərəsi ucaldıldı. Bu, qədim Qarabağımıza Heydər Əliyev möhürü, torpağımıza göz dikənlərə əbədi gözdağı idi Vaqifin məqbərəsi. Sonralar belə əzəmətli bir məqbərə də doğma diyarımızda, Naxçıvanda ucaldıldı. 1996-cı ildə Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, mənzum dram janrının banisi Hüseyn Cavidin məqbərəsinin açılışı oldu.

Ulu Öndərin qayğısı sayəsində folklor kitablarının, klassik ədəbiyyat nümunələrinin nəşri sahəsində Azərbaycanda çox böyük işlər görülüb və bu gün də həmin işlər uğurla davam etdirilir. Hələ ötən əsrin 70-ci illərindən başlayaraq Aşıq Ələsgərin, Aşıq Alının, Dədə Şəmşirin yubileylərinin keçirilməsi, Aşıq Qurbaninin, Aşıq Dilqəmin, Sarı Aşığın, Xəstə Qasımın, Abbas Tufarqanlının, Aşıq Hüseyn Bozalqanlının və başqalarının kitablarının çap olunması bu sahəyə göstərilən qayğının bariz ifadəsidir.

***Muxtar Məmmədov: – Ümummilli Liderimiz Azərbaycan ədəbiyyatı, mədəniyyəti və incəsənət xadimlərinin böyük hamisi idi...***

***Asim Yadigar:*** – Ulu Öndər Heydər Əliyev bütün fəaliyyəti dövründə Azərbaycan ədəbiyyatının klassiklərinə, çağdaş ədəbiyyatımızın qüdrətli nümayəndələrinə böyük diqqət və qayğı ilə yanaşır, milli-mənəvi dəyərlərimizin, dilimizin qorunmasında, inkişafında şair və yazıçılarımızın min illər boyu xalqımız qarşısındakı danılmaz xidmətlərinə yüksək qiymət verirdi.

Bəhs olunan dövrdə şair və yazıçılarımızın yubileyləri ilə bağlı onlarla, yüzlərlə yığıncaqlar, tədbirlər keçirilib. Müxtəlif illərdə əksər tanınmış yazıçı və şairlərimizin yubileylərinin keçirilməsində dahi şəxsiyyət Heydər Əliyevin özünəməxsus xidmətləri olub. Ulu Öndər ədəbiyyatımızın böyük təbliğatçısı olmaqla yanaşı, həm də müasir şair və yazıçılarımızın himayədarı idi.

Klassik şairlərimizin əsərlərinin çapı, təbliği ilə yanaşı, şifahi xalq ədəbiyyatı nümunələrimiz də unudulmadı. Milli varlığımızın tərcümanı – "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyinin YUNESKO tərəfindən dünya miqyasında keçirilməsi təşəbbüsünü də Azərbaycan Respublikası adından Ulu Öndərimiz qaldırdı. YUNESKO yubileylə bağlı təklifi qəbul etdi. Yubileylə bağlı hazırlıq işləri görüldü. Dastanla bağlı elmi kitablar yazıldı. Xatırladaq ki, elə 70-ci illərdə Xalq yazıçısı Anarın ssenarisi əsasında çəkilən "Dədə Qorqud" filminin xeyir-duasını da böyük şəxsiyyət vermişdir.

Müstəqillik qazandığımız illərdə də Ulu Öndərimizin sənət adamlarına qayğısı azalmadı. Müstəqil Azərbaycanımızın ilk "İstiqlal" ordenləri Xalq şairlərimiz B.Vahabzadəyə, M.Araza və X.R.Ulutürkə verildi. Bununla da Ümummilli Liderimiz Azərbaycanın müstəqilliyə qovuşmasında şairlərimizin, ədəbiyyatımızın rolunu yüksək qiymətləndirdi.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ədəbiyyata, sənət adamlarına Ulu Öndərimiz Heydər Əliyevin böyük qayğı missiyasını ləyaqətlə davam etdirir. Bu gün şair və yazıçılarımızın əsərləri ölkə başçısının "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 2004-cü il 12 yanvar tarixli Sərəncamı ilə nəşr olunaraq ölkə kitabxanalarına hədiyyə edilir. Şair və yazıçılarımız yüksək fəxri adlara layiq görülür. Onlara Prezidentin fərdi təqaüdləri, fərdi mükafatları verilir. Prezident cənab İlham Əliyevin 2007-ci ildə verdiyi sərəncamlara əsasən əlavə olaraq hər il 50 nəfər yaşlı, 20 nəfər gənc yazıçıya Prezidentin fərdi mükafatları verilir. Onlar üçün yaradıcılıq evləri tikilir. Ədəbiyyat tariximiz, Milli Ensiklopediyamız nəşr olunur, dünya ədəbiyyatının nadir inciləri yenidən çap olunaraq oxucuların ixtiyarına verilir. Biz yaradıcı ziyalılar Ümummilli Liderimiz Heydər Əliyevin Azərbaycanda, eləcə də onun ayrılmaz parçası olan doğma Naxçıvanımızda bu gün başqa sahələrlə yanaşı, mədəni həyatımızda, ədəbiyyat və incəsənətimizdə, milli-mənəvi dəyərlərimizin üzə çıxarılmasında, qorunmasında gedən müsbət yeniləşmələri, dəyişmələri görür və bu sürətli inkişafı ürəkdən alqışlayırıq.

***Muxtar Məmmədov:*** – Dəvətimizi qəbul edib redaksiyamıza gəldiyiniz və müasir Azərbaycanımızın qurucusu olan görkəmli dövlət xadimi Heydər Əliyev haqqında maraqlı söhbətlərinizə görə sizə "Şərq qapısı" qəzeti adından minnətdarlığımızı bildiririk.

**Muxtar MƏMMƏDOV**
***Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti***

## Xalq Heydər söyləyəcək!.. *(esse)*

Ən ülvi hisslərlə anıram o günü, o anı, o məqamı... Bir neçə saniyəlik görüş necə olub ki, qəlbimdə bu qədər əziz, bu qədər doğma hisslərə çevrilib? Axı mən hələ onda balaca bir uşaq idim. O əzəməti, o vüqarı, o dahiliyi uşaq ağlımla necə dərk edə bilmişdim?.. İndiki kimi xatırladığım və hər xatırladıqca həyəcanlandığım 1999-cu ilin oktyabr ayının bir payız günü həyatıma qürurla yazılan və heç zaman silinməyən birömürlük ən dəyərli xatirəyə çevrildi. Bəli, sadəcə, bir neçə saniyəlik görüş... Onda hələ cəmi 9 yaşım var idi. Atam bir neçə gün əvvəl "Heydər babanı görmək istəyirsən?" – deyə soruşdu. Biz Onu "Heydər baba" olaraq tanıyırdıq axı! Lap balaca uşaqkən atam bacımla mənə Heydər babaya aid şeirlər, mahnılar öyrədərdi, həvəslə ondan danışardı bizə. Atamın bizə aşıladığı bu əziz sevgi uşaqlıqdan canımıza hopmuşdu sanki... Düşünürəm ki, Naxçıvanda bu ənənə təkcə bizim evdə deyildi. Uşaqdan-böyüyə hər kəsin o böyük şəxsiyyətə tükənməz məhəbbəti var idi. Etiraf edim ki, Məhəmməd-hüseyn Şəhriyarın "Heydərbabaya salam" şeirini nə zaman eşitsəm, Heydər baba canlanardı gözümdə. İndi düşünürəm ki, qismən də olsa, yanlış düşünməmişəm. Çünki Heydər Əliyev də vüqarlı bir dağ idi, böyük bir zirvə idi Azərbaycan xalqı üçün. Şəhriyarın bir tribuna kimi istifadə edərək öz arzu və istəklərini bütün dünyaya bəyan etdiyi Heydərbaba dağından daha uca, daha ülvi, daha əzəmətli idi Heydər Əliyev dühası… Necə ki Arazın o sahilində yaşayan soydaşlarımız üçün Heydərbaba dağı nicat rəmzi, səadət nişanəsi idi, Azərbaycan üçün də Heydər Əliyev dühası xalq olaraq güvənlə yaslandığımız əzəmətli dağ, böyük dayaq idi.

Biz uşaqlar onu şəkillərdə görüb, şəkillərdə əzizləyib, şəkillərdə sevmişdik. Onun adı keçən şeirləri, mahnıları həvəslə əzbərləyib, qürurla səsləndirmişik. Onu gerçəkdən görməyi xəyal etdikdə ürəyim sürətlə döyünməyə başlayırdı. Atam söz vermişdi axı Heydər babanı görməyə gedəcəkdik. Nəhayət, o gün çatdı... Heç ağlımdan silinməyən o tarix... 13 oktyabr 1999-cu il... Atam demişdi ki, bu gün Cəlil Məmmədquluzadənin ev-muzeyinin açılışı olacaq, açılış mərasimində Heydər Əliyev iştirak edəcək. Həmin gün səhər saat 9-da ailəlikcə Heydər babanı qarşılamaq üçün yola düşdük. Ancaq naxçıvanlıların "İmişli" adlandırdıqları binanın yanına qədər gedə bildik. Çünki, şəhərdə böyük izdiham var idi. Hər kəs qəlbində aşıb-daşan sevgi ilə öz xilaskarını şüarlarla, bayraqlarla, güllərlə, çiçəklərlə qarşılamağa gəlmişdi. İnsanlar "Heydər baba", – deyə qürurla öz dövlətinin qurucusunu, memarını səsləyirdi. Böyük fərəh hissi ilə mən də onlara qoşuldum, bilmirəm sevincdənmi gözlərim yaşla dolurdu, içimdə çağlayan, coşub-daşan qəribə hisslər var idi, bütün qəlbimlə mən də səsləndim: "Heydər baba, Heydər baba!" Bir neçə dəqiqə sonra aramla bizə doğru gələn qara maşının arxa oturacağında əyləşən o ülvi insan xoş təbəssümlə əl edərək önümüzdən keçdi. Sanki qəlbimdə ona qarşı hiss etdiyim bu doğma hissi, bu böyük sevgini hiss eləmişdi, üzümə baxaraq mənə gülümsədi, o an özümü saxlaya bilmədim, məni bir hönkürtü tutdu. Bu onu bir neçə addım yaxınlıqdan görə bilməyin sevinc, qürur, fərəh, fəxarət göz yaşları idi. O xoş baxış, xoş təbəssüm bir ömür yaddaşıma həkk olundu.

Uşaqlıqdan indiyədək qəlbimdə o dahi insana qarşı uca və möhtəşəm bir məhəbbət yaşayır. Heydər Əliyev məhəbbəti… Bənzərsiz həyat yaşamış, xalqımın tarix kitabının qızıl səhifələrini yazmış Ulu Öndər, dahi Heydər Əliyevə olan ülvi məhəbbətimi, hüdudsuz sevgilərimi ifadə etməkdə sözlər acizdir. Ürəyimin dərinliklərində coşub-çağlayan duyğuların tərənnümü sözlərə, kəlmələrə, cümlələrə sığmır.

Bu gün hər bir azərbaycanlı yaxşı dərk edir ki, Heydər Əliyev Azərbaycan xalqının mənəvi sərvəti, bəxtinə düşmüş Tanrı payıdır. Nadir, təkrarsız şəxsiyyət, millətinin və məmləkətinin yeni tarixinin memarı, böyük düha, güclü və müstəqil Azərbaycanın, dünyanın sayğı göstərdiyi, istiqlalı dönməz, gündən-günə qüdrətlənən çağdaş ölkəmizin qurucusudur.

Böyük düha Heydər Əliyev elə tarixin özüdür. Tarix isə yalnız böyük dühaların parlaq əməlləri sayəsində nəsillərin yaddaşına həkk olunur. Deyirlər, "Elə yaşa ki, öləndən sonra da ölməyəsən". Ölməzlik, həmişəyaşarlıq isə ancaq dahilərə, böyük şəxsiyyətlərə nəsib olan xoşbəxtlikdir. Xalqımızın böyük oğlu Heydər Əliyev də məhz belə şəxsiyyətdir. Bir bahar günündə dünyaya göz açan dahi şəxsiyyət Azərbaycana bir nemət kimi bəxş olunan Tanrı payı idi. O gəlişi ilə Azərbaycana əbədi bahar gətirib, öz ömür kitabını şərəfləndirən uğurlara imza atıb. Zirvələr fatehi Heydər Əliyev ömrü boyu xalq üçün, Vətən üçün, yurd üçün, torpaq üçün, dövlət üçün çalışıb. Azad, suveren böyük Azərbaycanı yaradıb, üçrəngli istiqlal bayrağımızı başımızın üstündə yenidən dalğalandırıb. Onun misilsiz xidmətləri sayəsində Azərbaycan yenidən müstəqil siyasi varlığa çevrilib.

Dahi Heydər Əliyev azərbaycanlı olmağı ilə nə qədər fəxr edirdisə, Azərbaycan xalqı da öz böyük oğluna görə hər zaman özünü xoşbəxt, bəxtəvər sayıb. Xalq hər zaman Heydər Əliyev siyasətinə güvənib. Xalqın təkidi ilə xilaskarlıq missiyasını öz üzərinə götürən Ulu Öndərimizin müdrikliyi, uzaqgörənliyi, dəmir iradəsi sayəsində xalqımız bir çox bəlalardan xilas olub. İllər ötdükcə Azərbaycan xalqının böyük oğlu Heydər Əliyevin tarixi xidmətləri, bir insan ömründə yaratdığı möcüzələr daha aydın görünür. Zaman keçdikcə Ulu Öndərimizin böyüklüyünü bir daha dərindən dərk edirik. O, Azərbaycanın yalnız bu gününü deyil, xalqımızın sabahını, dövlətimizin gələcəyini düşünüb. Mənalı ömrünü öz xalqına həsr etmiş Ulu Öndərimizin siyasi irsi dövlət idarəçiliyi məktəbinə çevrilib. Bu gün Azərbaycan dünyada nüfuzlu dövlətlər sırasındadır. Təbii ki, bu nailiyyətlər dahi şəxsiyyətin layiqli davamçısı Prezident cənab İlham Əliyevin həyata keçirdiyi siyasət nəticəsində qazanılıb. Müqəddəs bir ocağın qılınc kimi kəsərli sözü, "Dəmir yumruğ"u olan cənab İlham Əliyev, Tomris qeyrətli, Sara xatın siyasətli Mehriban xanım Əliyeva kimi varisləri yaşadıqca biz sabahımızın bu günümüzdən də gözəl olacağına əminik. Heydər Əliyev irsi, siyasəti, yolu var olduqca bəxtəvər Azərbaycan xalqı da var olacaq. Necə ki Azərbaycan var olduqca, dahi Heydər Əliyev də daim yaşayacaq!

Elə dahi şəxsiyyətin kəlamında dediyi kimi: ***"Nə qədər ki, Azərbaycan var, mən də varam! Mən isə Azərbaycanda həmişə olacağam".*** O, həmişə bizimlədir! Yüz il deyil, yüzlərlə il keçsə də, əsrlər, qərinələr dolansa da, Azərbaycanın adı Heydər Əliyevlə qoşa çəkiləcək! Nağıllarda, dastanlarda, şeirlərdə, nəğmələrdə, çiçəklənən Vətənimizin hər guşəsində Onun abidəsi ucalır, ucalacaq! Dahi şəxsiyyətin ən böyük abidəsi isə Ona əziz olan xalqın ürəyindəki məhəbbət taxtı, sevgi sarayıdır! Bu sonsuz məhəbbət, bu əbədi sevgi xalqımızın qəlbində daim var olacaq!

**Gülcamal TAHİROVA**

# Heydər Əliyev İli

*"Dövrünün ən nüfuzlu siyasətçiləri ilə bir sırada duran Heydər Əliyev Azərbaycanın müasir simasının, xalqımızın zəngin dəyərlərinin tanıdılması və ölkəmizin beynəlxalq münasibətlər sistemində layiqli mövqe qazanmasında müstəsna rol oynamışdır. Ermənistan-Azərbaycan münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri əsasında həlli Ulu Öndərin qarşıya qoyduğu başlıca vəzifə olmuş, ölkəmizin bütün resursları, xalqımızın potensialı tarixi ədalətin bərpası üçün səfərbər edilmişdir. Ulu Öndərin şah əsəri olan güclü Azərbaycan dövləti öz suverenliyini, müstəqilliyini qorumağa qadir olduğunu 44 günlük Vətən müharibəsində şanlı Zəfər qazanmaqla sübuta yetirmişdir".*

***"Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında" Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 2022-ci il 29 sentyabr tarixli Sərəncamından***

## Milli irsimizin tədqiqinə tükənməz qayğı

*Azərbaycan Respublikası öz müstəqilliyinə qovuşması ölkəmizin sosial-iqtisadi həyatının bütün sahələrində islahatların aparılmasını zəruri etmişdi. Xalqımızın Ümummilli Lideri Heydər Əliyev 1993-cü ildə respublika Prezidenti seçildikdən sonra bu islahatları ardıcıl şəkildə həyata keçirməyə, ölkəmizin beynəlxalq mövqeyini qorumağa, daxili vəziyyətini stabilləşdirməyə yönəldilmiş tədbirlər görməyə başladı. Bu sahədə görülən mühüm işlərdən biri də qanunvericilik aktlarının yaradılması idi. Azərbaycan Respublikasının 1995-ci ildə qəbul edilən Konstitusiyası çoxsaylı qanunların yaranması üçün təməl oldu. Respublikamızın Konstitusiyasına görə tarix və mədəniyyət abidələrinin qorunması hər bir ölkə vətəndaşının mühüm vəzifəsinə çevrildi.*

Tarix və mədəniyyət abidələrinin qorunmasının bütün ölkə vətəndaşlarının əsas vəzifələrindən biri kimi Konstitusiyamızda təsbit edilməsinə baxmayaraq, bu sahədə mövcud olan boşluqlar mədəni irsimizin qorunmasını və öyrənilməsini çətinləşdirirdi. Bir çox xarici ölkə vətəndaşları izn almadan ölkəmizin tarix və mədəniyyət abidələrinin fotoşəkillərini çəkir, bir çox hallarda isə onları yanlış şərh edirdilər. Belə abidələrimizin məhv edilməsi, tariximizin yaddaşdan silinməsi, eksponatların xaricə daşınması kimi təhlükəli bir proses də başlamışdı. Bəziləri ölkəmizin ağır iqtisadi vəziyyətindən və vətəndaşlarımızın ehtiyacından istifadə edərək onların qiymətli xalçalarını, qızıl, gümüş və mis əşyalarını dəyər-dəyməzinə əllərindən alırdılar. Burada istər-istəməz görkəmli yazıçımız Mir Cəlalın öz qəhrəmanının dili ilə dediyi "İtə ataram, yada satmaram" ifadəsi yada düşür. Bəli, Azərbaycan xalqı respublikamızın bu ağır günlərində öz mədəni irsini itirmək təhlükəsi ilə üz-üzə durmuşdu. Bu ağır vəziyyətdə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin bilavasitə rəhbərliyi ilə yaradılan qanunlar və onun mədəni irsin qorunmasına münasibəti belə proseslərin qarşısını aldı. 1990-cı ildə Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə "Gülüstan" tarix-mədəniyyət qoruğu yaradıldı. 1997-ci ilin yazında Azərbaycan Avropa Mədəniyyət Konvensiyasına qoşuldu. Həmin ildə "Mədəniyyət haqqında" Qanun imzalandı. 1998-ci il aprel ayının 10-da "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul olundu. Bu qanunla abidələrimizin qorunması dövlət təminatı altına alındı, onların tədqiqi, qeydə alınması, xaricə aparılması və xaricdən gətirilməsinin qanunla tənzimlənən normaları müəyyənləşdirildi. 1998-ci il iyun ayının 13-də "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı verildi. Bu Fərmanda abidələrin qorunması, elmi tədqiqi, bərpası, regenerasiyası, rekonstruksiyası və konservasiyasında beynəlxalq təşkilatların iştirak etmə qaydası, xüsusi mülkiyyətdə olan abidələrin xaricə aparılmasına icazə verilməsi qaydası və digər mühüm məsələlər öz əksini tapmışdır.

Azərbaycan Respublikasının məqsədyönlü siyasəti nəticəsində 2002-ci ildə Azərbaycan Abidələrin Bərpası, Konservasiyası və Tədqiqi Beynəlxalq Mərkəzinə üzv qəbul olunmuşdu. Azərbaycanın dövlət əhəmiyyətli abidələri Şirvanşahlar saray kompleksi və Qız qalası da daxil olmaqla İçərişəhər YUNESKO-nun "Dünya mədəniyyəti irsi" siyahısına salındı. Xalqımızın Ümummilli Lideri Heydər Əliyev öz çıxışlarında, alimlərimiz və mədəniyyət xadimlərimizlə görüşlərində tarix və mədəniyyət abidələrinin qorunmasının vacibliyini, Azərbaycan xalqının tarixinin milli konsepsiya baxımından öyrənilməsini həmişə vurğulamış, bu barədə öz tövsiyələrini vermişdir.

Azərbaycanın ən qədim regionlarından biri olan Naxçıvanda da tarix və mədəniyyət abidələrinin qorunması ilə bağlı xeyli işlər görülmüşdür. Ulu Öndər Heydər Əliyevin qayğısı və tövsiyələri əsasında Əshabi-kəhf ziyarətgahında təmir-bərpa işləri aparılmışdır. 2001-ci ildən başlayaraq Gəmiqaya rəsmlərinin elmi əsaslarla öyrənilməsinə başlanılmış, xeyli məqalə və kitablar yazılmışdır. 2005-ci ildə Gəmiqaya abidəsinə beynəlxalq ekspedisiya təşkil edilmiş, Gəmiqaya ətrafındakı arxeoloji abidələr öyrənilmiş, etnoqrafik, folklor və onomastik materiallar toplanmışdır. Gəmiqaya ətrafında aşkar edilən arxeoloji abidələr, xüsusilə mühüm tarixi əhəmiyyətə malik olmuşdur. Bu abidələr arasında Nəbi yurdu yaylağındakı Erkən Tunc və Erkən Dəmir dövrlərinə aid qəbir abidələri, Tivi və Bist kəndləri ərazisində qeydə alınan Tunc və Erkən Dəmir dövrlərinə aid arxeoloji abidələr qədim tariximizin öyrənilməsi üçün dəyərli mənbədir.

2005-ci ildən başlayaraq Naxçıvan Muxtar Respublikası ərazisində mövcud olan qədim mədəniyyət abidələrinin tədqiqi işi daha da genişləndirilmişdir. 2006-2023-cü illərdə aparılan araşdırmalar zamanı 1200-dən artıq abidə qeydə alınaraq pasportlaşdırılmışdır. Abidələrin həm qeydə alınmasında, həm də tədqiqində beynəlxalq ekspedisiyaların üzvləri də iştirak etmişlər. ABŞ-ın Corciya Universitetinin və Fransa Milli Araşdırmalar Mərkəzinin əməkdaşları ilə aparılan araşdırmalar zamanı I Kültəpə, II Kültəpə, I Maxta Kültəpəsi, Ovçular təpəsi, Naxçıvantəpə Uçan Ağıl, Oğlanqala, Qızqala və digər abidələrdə qazıntılar həyata keçirilmiş, Arpaçay vadisində olan tarix və mədəniyyət abidələri müştərək araşdırmalarla öyrənilmişdir. Araşdırmaların nəticələri ilə bağlı olaraq xüsusi internet saytı yaradılmış və bu saytlarda Naxçıvanın tarix və mədəniyyət abidələri haqqında məlumat verilmişdir. 2017-ci ildə aşkar edilərək tədqiq olunmağa başlayan Naxçıvantəpə yaşayış yerinin qədim mədəniyyətimizin, o cümlədən Naxçıvan şəhərinin tarixinin öyrənilməsi üçün önəmli nəticələr vermişdir.

ABŞ-ın Corciya Universitetinin əməkdaşları ilə II Kültəpə və I Maxta Kültəpəsində, Arpaçay vadisində aparılmış müştərək araşdırmaların nəticələri ilə bağlı olaraq xüsusi internet saytı yaradılmış və bu saytda Naxçıvanın 45 arxeoloji abidəsi haqqında məlumat yerləşdirilmişdir.

Fransanın Milli Araşdırma Mərkəzinin əməkdaşları ilə Şərur rayonunda yerləşən Ovçular təpəsi abidəsində 2006-2013-cü illərdə aparılan kəşfiyyat xarakterli araşdırmalar zamanı Batabat kurqanları, Dizə kurqanları və onlarla digər qiymətli abidələr qeydə alınmışdır. Ekspedisiya əməkdaşlarının Naxçıvan şəhəri yaxınlığında yerləşən Duzdağdakı araşdırmaları, xüsusilə diqqətəlayiq olmuşdur. Tədqiqat zamanı müəyyən edilmişdir ki, Duzdağdan eramızdan əvvəl VI minillikdən başlayaraq duz çıxarılmışdır. Duz yerli əhalinin tələbatını ödəməklə yanaşı, beynəlxaq ticarətdə istifadə edilən ən qiymətli məhsullardan biri olmuşdur. Araşdırmalar zamanı eramızdan əvvəl VI-II minilliklərə aid keramika məmulatı, duz çıxarmaq üçün istifadə olunan müxtəlifölçülü daş çəkiclər əldə edilmişdir. Müəyyən olunmuşdur ki, qədim dövrdə duz, duz laylarının yer səthinə çıxan hissəsində açıq üsulla çıxarılmışdır. Ekspedisiyanın apardığı araşdırmaların nəticələri "Naxçıvanın qədim mədəniyyətləri" adlı kitabda ümumiləşdirilmişdir.

AMEA Naxçıvan Bölməsinin Naxçıvan Dövlət Universitetinin əməkdaşları ilə birlikdə apardığı araşdırmalar zamanı dünya və ölkə əhəmiyyətli arxeoloji abidələr, kitabələr, memarlıq abidələri, o cümlədən onlarla hamam, körpü və məscidlər qeydə alınmışdır. Bu abidələr arasında Şərur rayonundakı II Qız qalası, Babək rayonunun Buzqov kəndi yaxınlığında aşkar olunan Erkən Tunc dövrünə aid Hovuzlu yaşayış yerini, Kəngərli rayonunun Qarabağlar kəndi yaxınlığında yerləşən I Bəzəkli, II Bəzəkli, Çalxanqala kəndi yaxınlığındakı Qırmızıdaş qalaları, Ordubad rayonunun Bist və Ələhi kəndlərindəki körpüləri göstərmək olar.

Məlum olduğu kimi, Nuhla bağlı əfsanələr Naxçıvanın qədim tarixinin, folklorunun, bütövlükdə, milli-mənəvi mədəniyyətinin öyrənilməsi üçün olduqca əhəmiyyətlidir. Muxtar respublikamızda Azərbaycan Respulikası Prezidentinin Fərmanından irəli gələn vəzifələrə diqqətlə yanaşılması və onun icra olunması ilə bağlı həyata keçirilən tədbirlər nəticəsində Naxçıvan Muxtar Respublikası ərazisində yerləşən tarix və mədəniyyət abidələri qorumaya alınmışdır. 2003-cü ildə Məminə xatın və Qarabağlar türbəsində beynəlxalq təşkilatların iştirakı ilə bərpa və yenidənqurma işləri aparılmışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin muxtar respublikamızda tarix və mədəniyyət abidələrinin qorunması üçün göstərdiyi qayğının ifadəsidir ki, 2006-cı ildə "Arpaçay" Tarix və Mədəniyyət Qoruğu, "Gəmiqaya" Tarix-Bədii Qoruğu yaradılmışdır.

Həmçinin Məminə xatın, Qarabağlar Türbə Kompleksi, "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksi, Gülüstan türbəsi, Qazançı körpüsü, Yengicə hamamı, "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksində, Xanəgah abidələri kompleksində, Ordubad rayonunun tarix-memarlıq abidələrində, Naxçıvan şəhər buzxanası və onlarla digər abidələrdə bərpa və yenidənqurma işləri aparılmışdır.

2017-2022-ci illərdə Naxçıvantəpə yaşayış yerində aparılan arxeoloji qazıntılar zamanı aşkar olunan Dalmatəpə mədəniyyəti, Naxçıvanın qədim dövrlərdən Azərbaycanda gedən etnik-mədəni proseslərdə iştirak etdiyini və Azərbaycanın tərkib hissəsi olduğunu deməyə imkan vermişdir.

AMEA Naxçıvan Bölməsi və ABŞ-ın Pensilvaniya Universitetinin birgə təşkil etdiyi arxeoloji ekspedisiyanın 2022-ci ilin may-iyun aylarında Sədərək Kültəpəsində apardığı arxeoloji qazıntılar nəticəsində Sədərək Kültəpəsində şəhər strukturunun qalıqları, o cümlədən daş döşənmiş küçələr, böyükhəcmli, düzbucaq formalı ictimai binaların qalıqları, dəyərli keramika nümunələri, insanların təsərrüfat həyatını əks etdirən maddi mədəniyyət qalıqları aşkar olunmuşdur. Məlum olduğu kimi, Naxçıvanda şəhərtipli yaşayış yerləri eramızdan əvvəl III minilliyin sonunda meydana çıxmışdır. Tapıntılar sübut edir ki, bu ənənə Dəmir dövründə də davam etmişdir. Sədərək Kültəpəsi Cənubi Qafqazda, o cümlədən Azərbaycanda Dəmir dövrünə aid ən qədim şəhər yeridir. Arxeoloji araşdırmalar zamanı bu şəhərin yalnız bir qisminin, 600 kvadratmetrlik sahəsinin qalıqları aşkar olunmuşdur. Karbon nümunələrinin analizi şəhərtipli strukturların, təqribən, eramızdan əvvəl 900-790-cı illərdə, yəni urartuların Cənubi Qafqaza yürüşlərindən xeyli əvvələ aid olduğunu müəyyən etməyə imkan vermişdir.

Yuxarıda qeyd olunanlar tarix və mədəniyyət abidələrinin qorunması və tədqiqi ilə bağlı görülən işlərin yalnız bir qismidir. Bu istiqamətdə görülən işlər yalnız xalqımızın Ümummilli Lideri Heydər Əliyevin mədəni irsimizə qayğısı və onun tövsiyələrinin ardıcıllıqla həyata keçirilməsinin nəticəsidir.

Naxçıvan Muxtar Respublikasının ərazisi tarixin müxtəlif dövrlərinə aid tarix və mədəniyyət abidələri ilə zəngindir. Naxçıvan torpağının hansı hissəsinə külünc vursan oradan ulu əcdadlarımızla bağlı maddi mədəniyyət nümunələri üzə çıxacaqdır. Naxçıvan Yaxın Şərqdə meydana çıxan bir çox mədəniyyətlərin, o cümlədən Eneolit, Kür-Araz və Boyalı qablar mədəniyyətinin beşiyidir. Bu abidələr Azərbaycan türklərinin qədim dövrdən Naxçıvanın yerli əhalisi olduğunu təsdiq edən əvəzedilməz maddi mədəniyyət nümunələridir. Tarix və mədəniyyət abidələrinin tədqiqi alimlərimizin, onların qorunması isə ümumxalq işidir.

**Vəli BAXŞƏLİYEV**
***Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü***

## Məşğələ keçirilib

Əlahiddə Ümumqoşun Ordunun birləşmə, hissə və bölmələrində bütün növ silah və texnikalara mövsümə uyğun düzgün texniki qulluğun göstərilməsi ilə bağlı məşğələ keçirilib.

Məşğələ zamanı bölmələrin döyüş gücünü artırmaq məqsədilə hər bir silah və hərbi texnikadan düzgün istifadə qaydalarına əməl olunmasının və onların texniki sazlığının qorunmasının vacibliyi diqqətə çatdırılıb.

Məşğələdə silah və texnikanın fasiləsiz

və dayanıqlı istifadəsini təmin etmək məqsədilə mövsümi tələblərə uyğun olaraq hissə və mexanizmlərin dəyişdirilməsi, hər növ texnikanın mövsümə uyğun istifadə olunması ilə bağlı nəzəri dərslər keçilib.

Nəzəri dərslərdən sonra atıcı silahlara, avtomobil və zirehli texnikalara, aviasiya və hava hücumundan müdafiə vasitələrinə, rabitə avadanlıqlarına və digər texnikalara texniki qulluğun göstərilməsi praktiki olaraq şəxsi heyətə öyrədilib.

**Kənan CƏLİLOV**

# Heydər Əliyev İli 2023

*Müstəqillik hər bir xalqın ən əziz nemətidir. Əsrlərboyu tarixin şahidlik etdiyi müharibələr və mübarizələrin əsası dünya xalqlarının müstəqillik istəyindən qaynaqlanmışdır. Lakin müstəqilliklə yanaşı, onu qoruyub saxlamaq da bir o qədər çətin prosesdir. Bu müqəddəs yolda xalqımız olum ya ölüm mübarizəsi keçib. Bu çətin prosesdə xalqının fədaisi Ümummilli Lider Heydər Əliyev canı bahasına xilaskarlıq missiyasını üzərinə götürmüşdür. Bir əsrdə iki dəfə müstəqillik əldə edən mübariz xalqımız müstəqilliyin qorunub saxlanması kimi müqəddəs missiyada Heydər Əliyev dühası ilə tarix yazdı.*

## Azərbaycan diplomatiya tarixinin Heydər Əliyev mərhələsi

Xalqın xilaskar olaraq gördüyü Ulu Öndər Heydər Əliyev hələ SSRİ vaxtında mühüm dövlət vəzifələrində çalışmışdır. O, 1967-ci ildə Azərbaycan Kommunist Partiyasının birinci katibi seçilir. Xalqına xidmət etməkdən bir an belə yorulmayan Ümummilli Lider ölkənin inkişafı yolunda əvəzsiz addımlar atır. Baxmayaraq ki, SSRİ qurulduğu andan etibarən, xüsusilə Azərbaycanda milli kadr potensialını hədəf alır, Azərbaycan xalqının qaymaq təbəqəsini soyqırımı və deportasiyalara məruz qoyurdu. Vətən oğulları ordu sıralarına çağırılmır, xalqın sosial və siyasi inkişafı müxtəlif yollarla süni şəkildə dayandırılırdı.

SSRİ-nin ölkəmizə yönəlmiş mənfi kadr siyasətinin kəskin vaxtında Ulu Öndər Heydər Əliyev kimi bir şəxsiyyətin vəzifəyə gəlməsi dahi siyasətçinin böyük əzmkarlığı və uzaqgörənliyinin bir daha sübutudur. O, siyasi hakimiyyətinin başladığı ilk vaxtlardan açıq və ya gizli şəkildə Azərbaycan xalqının maarifləndirməsi, inkişafı yolunda misilsiz addımlar atmağa başlayır.

1991-ci ildə SSRİ-nin dağılması ilə Azərbaycan azad bazar iqtisadiyyatına keçid etdi. Lakin yenicə müstəqilliyinə qovuşan Azərbaycan dövləti istər daxili, istərsə də xarici siyasətdə xaos yaşayırdı. Bir tərəfdən cəzasızlıq mühitindən istifadə edən erməni birləşmələrinin Qarabağdakı özbaşınalıqları, digər tərəfdən, səriştəsiz hakimiyyət ölkəni anarxiyaya sürükləyirdi. Bu xaosun əsas səbəbi isə Rusiyanın Cənubi Qafqazdakı varlığını qorumaq təlaşından qaynaqlanırdı. Təbii ki, Rusiyanın isterikaya qapılması əbəs deyildi. İstər meydan hərəkatı, istərsə də sərhəd hərəkatı Azərbaycan xalqının polad iradəsini, sarsılmaz qətiyyətini, müstəqillik üçün can atan ruhunu nəinki Rusiyaya, eləcə də bütün dünyaya nümayiş etdirdi.

1990-cı ildə dahi siyasətçi Qanlı Yanvar hadisələrinə görə SSRİ hakimiyyətinə kəskin etirazını bildirir və may ayında Azərbaycana qayıdır, siyasi fəaliyyətini Naxçıvanda davam etdirir. Xalqın israrlı təkidi və tələbi ilə 1993-cü il 15 iyunda Bakıya qayıdır. Bu tarix, sadəcə, təqvim deyil, Azərbaycan xalqının qurtuluşunun tarixidir. Bu tarixdə dahi şəxsiyyət Heydər Əliyev Azərbaycan Ali Sovetinin sədri seçilir, həyati risk və təhlükələrə baxmayaraq, xilaskarlıq missiyasını böyük əzmkarlıqla yerinə yetirir.

Görkəmli dövlət xadimi hakimiyyətə gəldiyi ilk gündən Azərbaycanın yerləşdiyi geostrateji ərazini nəzərə alaraq özünəməxsus siyasi dəstxət seçmişdir. Ulu Öndərdən əvvəlki hakimiyyətlər xarici siyasətdə daha radikal mövqedə duraraq diplomatik təfəkkürdən uzaq olan emosional və təkyönlü siyasət seçmişdilər. Bu siyasət 1990-1993-cü illərdə yaşanmış qarışıqlıqların, siyasi səbatsızlığın əsas səbəblərindəndir. Rusiyanın Cənubi Qafqaza qarşı "arxa bağça" siyasətini həmin ərəfədə gözardı etmək mümkün deyildi. Həmçinin də İranın Türk dünyası ilə bağlı qorxuları, turançılıq ideologiyası bu ölkəni Azərbaycana qarşı əks-siyasət yürütməyə sövq edirdi. Hər iki dövlətlə üst-üstə düşməyən milli maraqlar Azərbaycanın daxilində yeni çaxnaşmalar yaradır, hakimiyyət uğrunda mübarizələr daha da qızışırdı. Bütün bu siyasi xaos və anarxiyanı görən ziyalılar – xalq xilaskarını hakimiyyətə dəvət edir. Xalqın təkidi və tələbi ilə dahi şəxsiyyət öz millətinə və dövlətinə sahib çıxır. Çünki xalq çox yaxşı bilirdi ki, bu siyasi qarışıqlığın öhdəsindən yalnız Heydər Əliyev kimi düha gələ bilərdi.

Uzaqgörən siyasətçi 1993-cü il oktyabrın 3-də Prezident seçilir. Bununla da 1990-1993-cü illər ölkədə baş verən siyasi hərcmərclik və anarxiya dahi şəxsiyyət Heydər Əliyevin səyləri ilə səngidi. Ulu Öndər iqtidara gəldiyi gündən çoxşaxəli diplomatiya həyata keçirdi, eyni zamanda ölkə daxilində qarışıqlığa son verərək mərkəzləşdirilmiş dövlət yaratmağa müvəffəq oldu.

1993-cü ilin ikinci yarısında ölkənin siyasi fəaliyyətində və xarici siyasətində köklü dəyişikliklər yaşanmağa başladı. Dahi siyasətçi dövrün ən düşünülmüş siyasətini – balans siyasətini həyata keçirirdi. Nəzərə alaq ki, Cənubi Qafqazda Qərbin və Rusiyanın maraqları hər zaman toqquşur. Azərbaycan Rusiyanın bölgəyə təsir gücünü hər zaman azaltmağa çalışıb. Bunun üçün Qərb ölkələri ilə iqtisadi və siyasi əlaqələri qoruyub möhkəmləndirməyə və inkişaf etdirməyə üstünlük verib.

Heydər Əliyev siyasətinin qarşısında duran ən ümdə vəzifələrdən biri Azərbaycanın beynəlxalq münasibətlər sisteminə inteqrasiyası və Qarabağ problemi idi. Azərbaycan tarixi həqiqətlərini dünya ictimaiyyətinə çatdırmağı və beynəlxalq sistemin dəstəyini qazanmağı əsas məqsədlərindən biri hesab edirdi. Çünki Azərbaycanın ərazi bütövlüyünə qəsd olunmuş, ərazilərinin 20 faizi işğal edilmiş, insan hüquqları ciddi şəkildə pozulmuşdu. Həm də dövlətimizin suveren hüquqları tapdalanmış və müstəqilliyimizə qarşı təhdidlər, risklər yaranmışdı.

Dahi şəxsiyyət bütün bu faktları nəzərə alaraq qətiyyətli siyasi dəstxət seçdi. Ulu Öndər enerji amilindən də istifadə etməklə dünyanın aparıcı ölkələri ilə siyasi, iqtisadi və mədəni əməkdaşlıq platforması yaratmağı vacib şərt hesab edirdi. Nefti vasitə olaraq istifadə etməklə dünyanın böyük dövlətlərinin, beynəlxalq təşkilatların, iri kommersiya şirkətlərinin diqqətini regiona çəkməklə, eyni zamanda Ermənistan üzərində təsir mexanizmi formalaşdıracaqdı. Avropanın alternativ enerji axtarışı onu Azərbaycanla əməkdaşlığa sövq edəcək və nəticədə, böyük dövlətlər Azərbaycanın təhlükəsizliyində maraqlı olacaqdılar.

Bir qədər geriyə qayıdaq... Ümummilli Liderimizin siyasi səriştəsi nəticəsində BMT Təhlükəsizlik Şurası Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalı ilə bağlı 822, 853, 874, 884 saylı qətnamələr qəbul edib. 822 nömrəli qətnamə Kəlbəcərin işğalından sonra qəbul edilmişdir. Qətnamə bölgədəki hərbi əməliyyatlara son verməyə, erməni qoşunlarının Kəlbəcərdən və son dövrlərdə işğal etdiyi Azərbaycan torpaqlarından geri çəkilməsini tələb edirdi. 853 nömrəli qətnamə bölgədəki hərbi əməliyyatlara son verməyi, erməni qoşunlarının Ağdamı və son dövrlərdə işğal etdiyi Azərbaycan torpaqlarınından geri çəkilməsini tələb edirdi. Qətnamə, həmçinin 822 saylı qətnaməyə də əməl edilməsini tələb edirdi. 874 nömrəli qətnamə atəşkəs imzalanmasını, hərbi əməliyyatları dayandıraraq erməni qoşunlarının son dövrlərdə işğal etdiyi Füzuli (23 avqust 1993), Cəbrayıl (26 avqust 1993), Qubadlı (31 avqust) və digər ərazilərdən geri çəkilməsini tələb edirdi. Qətnamədə, həmçinin əvvəlki 822 və 853 saylı qətnamələrə əməl edilməsi tələbi də öz əksini tapmışdı. 884 nömrəli qətnamə ilə tərəflər arasında yenidən hərbi əməliyyatların bərpası ilə nəticələnən atəşkəs pozulmaları qınanılır, Ermənistan Respublikasından ermənilərin qondarma respublika üzərindəki bütün təsir vasitələrindən istifadə etməsi istənilirdi. Qətnamədə hərbi əməliyyatların dərhal dayandırılması tələb edilir, son dövrdə işğal edilmiş Zəngilan rayonu da daxil olmaqla, digər rayonlardan erməni silahlı dəstələrinin çıxması tələb edilirdi. Sonda isə əvvəl qəbul edilmiş 822, 853, 874 saylı qətnamələrə əməl edilməsi tələb olunurdu.

Bu qətnamələrin icrası böyük güclərin ikili standartlarla yanaşması nəticəsində 2020-ci ilin sentyabrına qədər kağız üzərində qaldı. Qüdrətli Azərbaycan dövlətinin müzəffər Ordusu və dahi diplomat Heydər Əliyevin siyasi dəstxətinin davamçısı Prezidentimiz cənab İlham Əliyevin çevik və uzaqgörən siyasəti nəticəsində Vətən müharibəsində qətnamələr icra olundu.

Dahi diplomat Heydər Əliyevin misilsiz səyləri nəticəsində qəbul edilmiş bu qətnamələr həyati əhəmiyyət kəsb edir. BMT Təhlükəsizlik Şurasının daimi üzvlərini nəzərə alsaq, xüsusilə Fransanın tarixboyu ermənipərəst mövqedə olması, islamafobiyanın, antitürk siyasətinin açıq və qabarıq şəkildə həyata keçirilməsi qəbul edilmiş qətnamələrin əhəmiyyətini bir daha sübut edir. 2020-ci ildə İkinci Qarabağ müharibəsi ərəfəsində Rusiya və Fransanın bu qətnamələri qüvvədən salacaq yeni qətnamənin qəbulu ilə bağlı səyləri Prezident cənab İlham Əliyevin düşünülmüş, uzaqgörən siyasəti nəticəsində uğursuzluqla nəticələnir.

Hər nə qədər dünya dövlətləri regional sülh və təhlükəsizlik məsələsinin önəmini vurğulasalar da, Ermənistanın təxribatlarını, Azərbaycanın suverenliyinə olan təhdidlərini görməzdən gəlirdilər. 1997-ci ildə dəyəri 1 milyard ABŞ dollarından çox olan müasir silah və sursatın qeyri-qanuni yollarla Rusiya tərəfindən Ermənistana verilməsi məsələsi ortaya çıxmışdır. Hətta Azərbaycan ərazilərinin işğalında bu silahlardan istifadə edilməsi beynəxalq hüququn kobud şəkildə pozulduğuna nümunədir.

1994-cü il 12 may tarixdə Bişkekdə Azərbaycan və Ermənistan arasında atəşkəs sazişi imzalanır. Bundan sonra isə Qarabağ probleminin diplomatik qaydada, beynəlxalq hüquqa uyğun həlli istiqamətində aramsız danışıqlar başlayır.

Ardınca isə 1994-cü il 20 sentyabr tarixində Bakıda Gülüstan sarayında "Əsrin müqaviləsi" adlı meqalahiyə imzalanır. Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Azəri-Çıraq -Günəşli" yatağının ortaq işlənməsi və pay bölgüsü ilə bağlı bu lahiyəni ABŞ "Əsrin müqaviləsi" adlandırmışdır. Bu məlumat Ümummilli Liderimizin ABŞ prezidenti Bill Klintona yazdığı məktubunda da öz əksini tapmışdır.

Ümumi dəyəri 8 milyard dollar olan bu meqalayihə Ulu Öndərin enerji diplomatiyasının əsasını qoydu. 1994-2003 cü illərdə "Şahdəniz" yatağının da aid olduğu daha 22 müqavilə imzalanmışdır. "Şahdəniz" yatağını digər yataqlardan fərqləndirən əsas məsələ 400 milyard kubmetr qaz ehtiyatı ilə Azərbaycanın bölgədə Rusiya və İrana rəqib olması idi. Dahi şəxsiyyət Heydər Əliyevin diplomatik səriştəsi nəticəsində imzalanan bu müqavilələr Azərbaycan üçün həyati əhəmiyyət kəsb edirdi. Ölkəmiz həm iqtisadi cəhətdən güclənir, həm də dünya ölkələri arasında söz sahibinə çevrilirdi.

Azərbaycanın enerji siyasətinə öz töhfəsini verən dahi Heydər Əliyevin daha bir uğuru "21-ci əsrin layihəsi" adlandırılan Bakı-Tbilisi-Ceyhandır. 1998-ci il 29 oktyabr tarixdə Azərbaycan, Türkiyə, Gürcüstan və Qazaxıstan belə bir layihənin önəmini vurğulayan Ankara bəyannaməsini imzalayırlar. 1999-cu il 18 noyabr tarixdə Azərbaycan, Türkiyə və Gürcüstan arasında ATƏT-in İstanbul sammitində ilkin razılaşmalar əldə olunur. 2002-ci il 18 sentyabr tarixdə Bakıda, Səngəçal terminalında təməlatma mərasimi olur. Açılış mərasimində Ümummilli Lider Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru xətti haqqında belə deyir: ***"2005-ci ildə hamımız Ceyhana gedəcəyik. Bu, xəyal deyil, bir həqiqətdir".***

Dahi siyasətçi xarici siyasətdə region ölkələri ilə yanaşı, dünyanın aparıcı dövlətləri ilə münasibətlərə xüsusi diqqət etmişdir. Hələ Naxçıvanda Ali Məclisin Sədri olarkən ABŞ prezident seçkilərində qalib gələn Bill Klintona təbrik məktubu göndərmişdir. Məktubda Azərbaycan-ABŞ münasibətlərinin normallaşacağına, həmçinin də Naxçıvanın Ermənistan tərəfindən blokadaya alınmasına ABŞ-ın icazə verməyəcəyinə dair dərin inancını bildirmişdir. Ümummilli Liderin böyük idarəçilik qabiliyyəti, siyasi təcrübəsi harada olmasından asılı olmayaraq, lazımi və düzgün qərarlar verməsinə imkan yaradırdı. Hər zaman bu uzaqgörənlik xalqımızın və dövlətimizin təhlükəsizliyinə hesablanırdı.

4 fevral 1993-cü ildə isə ABŞ-ın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Richard Miles Naxçıvana səfər etmiş, görkəmli dövlət xadimi Heydər Əliyevlə görüşündə ABŞ dövlət başçısı Bill Klintonun yaşanan bu hadisələrdən məyus olduğunu bildirmişdir. Eyni zamanda Azərbaycan-Ermənistan məsələlərindən, Naxçıvanın blokadaya alınmasından, bu blokadanın yaratdığı çətinliklərdən geniş söz açılmışdır.

> *"Mərhum Heydər Əliyev Azərbaycanın xoşbəxtliyi və firavanlığı, bölgədə və dünyada sülh naminə göstərdiyi fövqəladə xidmətlərlə türk və dünya tarixində şərəfli yer tutmuşdur".*
>
> **Rəcəb Tayyib ƏRDOĞAN**
> **Türkiyə Respublikasının Prezidenti**

Səfir Bill Klintonun Naxçıvana humanitar yardımla bağlı məktubunu Ümummilli Liderimizə təqdim etmişdir. ABŞ-ın Azərbaycana qarşı hər cür yardımı yasaqlayan 907-ci maddəyə (1992-ci ildə ABŞ-dakı erməni lobbisinin konqresdəki aktiv fəalliyyətindən Azərbaycana qarşı qəbul edilmiş "Azadlığı müdafiə aktı"nın 907-ci maddəsi) baxmayaraq, tezliklə Naxçıvana humanitar yadım göndərilmişdir. Dahi siyasətçinin bu addımı Azərbaycan-ABŞ münasibətlərində yeni dövrün başlanğıcı sayılır.

1997-ci il 27 iyul-7 avqust tarixlərdə ABŞ dövlət başçısı Bill Klintonun dəvəti ilə görkəmli dövlət xadimi Heydər Əliyev ABŞ-a rəsmi ziyarətə getmişdir. Bu ziyarət Heydər Əliyev diplomatiyasının ən böyük uğurlarındandır. Bu ziyarəti bütün dünya mediası yaxından izləmişdir. Bu tarixi ziyarət Azərbaycanın beynəlxalq sistemə inteqrasiyasını daha da sürətləndirmiş, həmçinin də tarixi səfər nəinki Qafqazda, eləcə də Orta Asiyada mövcud situasiyanı dəyişdirmişdir. Heydər Əliyevin tarixi səfəri ABŞ-ın ikili münasibətlərə, eləcə də Qarabağ məsələsinə mövqeyini də dəyişdirmişdir. Hətta ABŞ Qarabağı Azərbaycanın suveren ərazisi kimi tanımağa başlamışdır. Heydər Əliyevin aramsız diplomatik təmasları nəticəsində 2002-ci ilin yanvarında "Azadlığı müdafiə aktı"nın 907-ci maddəsi dayandırılmışdır.

Bu gün Ümummilli Liderimiz Heydər Əliyevin misilsiz, analoqu olmayan diplomatiyasını, liderlik və qərar qəbuletmə qabiliyyətini Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı cənab İlham Əliyev qətiyyətlə həyata keçirir. Dövlət idarəçiliyi, ordu quruculuğu diplomatik səriştə və qloballaşan dünya siyasətinə sürətli inteqrasiya nəticəsində Azərbaycan beynəlxalq münasibətlərin əsas aktorları sırasındadır. Ölkəmiz müasir dövrün dəyişən qüvvələr balansında özünə layiq mövqe qazanmışdır.

Azərbaycan 2020-ci ilin 27 sentyabr tarixində dünya hərb tarixini yenidən, qızıl hərflərlə yazdı. Dünya dövlətlərinə müasir müharibənin qaydalarını göstərdi. Şanlı Qələbə təkcə döyüş meydanında deyil, müzəffər Ali Baş Komandanın dəmir iradəsi ilə informasiya müharibəsində, diplomatiya sahəsində də yaşandı. Xalq "Dəmir yumruq" olub liderinin ətrafında birləşdi.

*8 Noyabr 2020-ci ildə Azərbaycanın mədəniyyət beşiyi sayılan Şuşa şəhərinin işğaldan azad olunması münasibəti ilə ölkə başçısı cənab İlham Əliyev Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət edərkən hisslərini belə ifadə etmişdir:* ***"Xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Bu gün şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları!"***

**Nazlı YAQUBOVA**
***Naxçıvan Dövlət Universitetinin Beynəlxalq münasibətlər kafedrasının müəllimi, siyasi elmlər üzrə dissertant***

# Heydər Əliyev İli

100

## Xüsusi dövlət əhəmiyyətli tapşırıq (VI hissə)

*(əvvəli qəzetin 8 mart, 29 mart, 4 aprel, 27 aprel, 5 may 2023-cü il tarixli nömrələrində)*

...Üç günə doqquz təyyarə dolu "yükü" Naxçıvana gətirə bildim. Ürəyimə dammışdı ki, xoşagəlməz bir hadisə ilə üzləşəcəyəm. Səhər tezdən aeroporta gələndə o xəbəri aldım. Müdafiə Nazirliyi tərəfindən Naxçıvana uçuşlar dayandırılmışdı. Səbəb uçuşların təhlükəli olması, ermənilər tərəfindən təyyarələrin vurulması ehtimalı idi. Təcili Bakıya getdim, lazım olan razılıqları alıb, Gəncəyə qayıtdım. Çox riskli bir qərar qəbul etmişdim. "Humanitar yardımı" Bakıya, oradan da Naxçıvana aparacaqdım. 350 kilometr məsafəni, çox sayda polis nəzarət postlarından keçirməklə qət etmək elə də asan deyildi. Bu işin fasiləsiz həyata keçirilməsi üçün bütün lazımi tədbirləri görüb səfərbər olmuşduq. Bakıdan Naxçıvana "Tu-134" və "Tu-154" sərnişin təyyarələri uçurdu. Əvvəlcə baqaja bizim yüklər, sonra isə sərnişinlərin yükü yerləşdiriləcəkdi. Təyyarələr İran İslam Respublikası üzərindən Naxçıvana uçurdu. Qonşu ölkənin nümayəndələri təyyarələrin Tehranda enməsini, yoxlanışdan sonra Naxçıvana uçuş etməsini bildirəndə Ulu Öndər hava gəmisində yaşlıların, uşaqların olduğunu söyləmişdi. Onları narahat etməyin yolverilməz olduğunu demişdi. Son bir şansım var idi. Axşam Gəncədə "Yak-40" təyyarəsinin pilotu Tanrıverdi Əliyev ilə görüşdüm. Ona sabah Naxçıvana uçmağı təklif etdim. Təklifimi qəbul etdi. Ertəsi gün yük dolu təyyarə ilə Gəncədən Naxçıvana uçduq.

...Ukrayna əsgər və zabitlərini yüksək qonaqpərvərliklə evlərinə yola saldıq. Naxçıvanda rus əsgər və zabitləri qalmışdı. Müəyyən təxribatçı qruplar onların ailələrinə qarşı yolverilməz hərəkətlər etmək istəyirdilər. Onların qarşısı qətiyyətlə alınırdı. Biz qonaqlarımızı gül-çiçəklə yola salmağa hazırlaşırdıq.

Gəncədə olarkən bir xəbər aldım. Naxçıvanda hərbi anbarda partlayış baş vermişdi. On tona yaxın mərmi partlamışdı. Təxribatı ermənilər törətməmişdi. Sözün bitdiyi yerdir. Kimin tərəfindən törədildiyinə oxucuda, yəqin ki, şübhə qalmadı. Elşən Əliyevlə Gəncədə çox mühüm işlər görmüşdük. Elşən xalq qəhrəmanı idi. Hüquqşünas olmasına baxmayaraq, münaqişə başlayan gündən hadisələrin mərkəzində idi. Bir çox kəndlərimizin alınmasında misilsiz xidmətləri olmuşdur. Barəsində saysız məqalələr, kitablar yazılmışdı. Hərbi sənaye ilə ciddi maraqlanırdı. Hətta o bizə 100 millimetrlik top mərmilərini yenidən istehsal etmək üçün mexaniki bir qurğu da vermişdi. Mərmilərin müxtəliftəyinatlı başlıqlarından, barıtından və sair hissələrindən xeyli tədarük edib Naxçıvana göndərmişdim. O cümlədən 64 və 82 millimetrlik minaatanların mərmilərini də yığa bilirdik. Bunun üçün Ağstafa rayonundan külli miqdarda hissələr gətirmişdim. Elşənə dedim ki, sənə bir təklifim var: – döyüş dostlarından ibarət bir tabor yaradıb Naxçıvana aparmaq istəyirəm, komandir də sən olacaqsan. Təklifimi müsbət qarşıladı. Naxçıvana qayıdanda Ulu Öndərlə görüşümdə gəncəlilərdən ibarət bir tabor yaratmaq fikrimi ona bildirdim, təklifimi bəyəndi.

Gəncəyə qayıdanda Elşən otuz nəfərin siyahısını mənə verdi. Yüzdən çox könüllünün isə Gəncədə olmadıqları üçün onların da adlarının siyahıya alınmasını xahiş etdi. Siyahını Naxçıvanda Elman Abbasova təqdim etdim. Beləliklə, Gəncə taboru Naxçıvan Dövlət Milli Müdafiə Komitəsində rəsmi qeydiyyatdan keçdi.

Gəncə Maşınqayırma Zavodunun direktoru Eldar Qarayev altı ədəd "Qrad" kompleksinin hazır olduğunu bildirdi. Zavodun üç nəfər mütəxəssisini qurğuları quraşdırmaq üçün Naxçıvana gətirdim. Elman Abbasov bizə qurğuları Elektrotexnika zavodunda altı ədəd "Zil-131" markalı avtomobilə quraşdırmaq üçün hər cür şərait yaratmışdı. Əlavə olaraq burada Gəncədən gətirdiyim 30 ədəd döyüş helikopterlərinin raket atan qurğuları da quraşdırılacaqdı. Onların da kifayət qədər C5 və C7 mərmilərini Gəncədən gətirmişdim. Bir neçə gün əvvəl isə 50 ədəd iriçaplı pulemyot, 20 ədəd 82 millimetrlik, 30 ədəd 120 millimetrlik minaatan və onların külli miqdarda mərmilərini gətirmişdim. İndi isə Gəncə taborunu gətirməyə gedirdim. Bir gün öncə onlarla görüşüb müvafiq söhbət etmişdim. Əsgərlərdə döyüş əhvali-ruhiyyəsi çox yüksək idi. Elşən isə Kamo kəndində qaçqınlara verdiyi evdə birgə yaşayan həyat yoldaşına və üç azyaşlı övladına "tezliklə gələcəyəm", – deyib üç gün əvvəl mənimlə Gəncəyə qayıtmışdı. Ermənilər Kamo kəndini aramsız atəşə tuturdu, evin hər tərəfində güllə izləri vardı. Yerli əhali isə kənddən çıxmamışdı...

Naxçıvanda ən şiddətli döyüşlər Sədərəkdə gedirdi. Sədərək Naxçıvanın qapısı idi. Ona görə də ermənilər bütün güclərini burada cəmləşdirmişdilər. Özləri üçün bəzi bənzətmələr – Qarabağı üzüyə, Naxçıvanı isə almaz qaşına bənzətmişdilər. Coğrafi baxımdan Sədərəyin İrəvana yaxın olması onlarda xəyal yaratmışdı. Sonralar bəzi erməni strateqləri və siyasətçilər Qarabağdansa, Naxçıvanı ələ keçirmədiklərinə görə böyük səhv etdiklərini etiraf edəcəkdilər...

Ulu Öndər Gəncə taboruna uğurlar arzuladı. Ona çox mühüm hadisələrin şahidi olacağını söylədim. Bütün hazırlıqlar görülmüşdü. Elman Abbasov görüşüb taboru Sədərəkdəki mövqelərimizdə yerləşdirdik. O günə qədər ermənilər on üç dəfə Sədərəyə hücum etmişdi. Ermənilərin hücumunu gözləyirdik. Gəncə taborunun Naxçıvana gəlməsi muxtar respublikada böyük əhvali-ruhiyyə yaratmışdı. İstər yerli əhali, istərsə də döyüşçülərimiz arasında döyüşü qazanacağımıza böyük inam var idi. Ermənilərin növbəti hücumu onlar üçün axırıncı oldu. Üç gün ərzində əsgərlərimiz qəhrəmanlıq göstərdilər. Elşən mahir topçu idi. Bizim topçularımız da – Abdulla, İkinci Dünya müharibəsi veteranı Qafar dayı, Nurəddin Rəhimov (istefada olan mayor), Ağaəli Əsədov (istefada olan mayor) və başqaları Naxçıvanın müdafiəsində adlarını hərb tariximizə qızıl hərflərlə yazmışdılar. Gəncə taboru və bizim əsgərlər bu döyüşdə böyük qəhrəmanlıq göstərdilər. Ümummilli Lider Gəncə taborunun əsgərlərini mükafatlandırdı. Telman, Nəriman, Firdovsi, Gəray, Xanlar, İlqar, Ceyhun, Şahin, Oruc və digər könüllülər döyüşlərdə xüsusi fərqlənmişdilər. Taborun komandiri Elşən Əliyevə mənim təqdimatımla "Qaz-24" avtomobili bağışlandı. Döyüşdən sonra Ümummilli Lider Ermənistan prezidenti Levon Ter-Petrosyanın ona zəng edib, döyüşləri dayandırmaq haqqında xahiş etdiyini bildirdi. Üzümə baxıb gülümsədi. Axı döyüşdən öncə erməni prezidentini onun ayağına gətirəcəyimizi bildirmişdim. Ulu Öndər 1993-cü ildə Prezident seçildikdən sonra onun göstərişi ilə Azərbaycan televiziyasından bir qrup işçi məndən həmin epizodu lentə almaq üçün Naxçıvana gəlmişdi. Gələnlər arasında telejurnalist Nurəli və rejissor Tofiq Gülməmmədov da var idi. Çəkiliş Sədərəkdə, səngərdə oldu. Bizimlə bərabər həmin hadisələrin iştirakçıları və şahidləri, Sədərək Rayon İcra Hakimiyyətinin başçısı Adil Kazımov, rayon prokuroru Arif Rzayev, rayon məhkəməsinin sədri Mahmud Cəfərov və başqaları da var idi.

Ulu Öndərlə bizə yardım edənlərin əməyinin qiymətləndirilməsi ilə bağlı söhbətimizdən sonra O mənim təqdimatımla otuz nəfərə aşağıdakı məzmunda təşəkkür məktubu imzaladı:

"Hörmətli_____ (hər məktubda iştirakçıların adı və soyadı şəxsən yazılmışdır).

Naxçıvan Muxtar Respublikasına tarixin bu çətin dövründə xoş münasibətlər göstərdiyinizə, Naxçıvan əhalisi ilə həmrəyliyinizə və yardımınıza görə Sizə təşəkkür edirik.

İşlərinizdə yeni uğur, həyatınızda səadət arzulayırıq".

Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin Sədri : Heydər Əliyev.

Məktubları ara sakitləşəndən sonra sahiblərinə şəxsən özüm təqdim etdim. Ulu Öndərimiz daha çox fərqlənən 11 nəfərə Naxçıvanın "Fəxri vətəndaşı" adı verilməsi üçün təqdimat hazırlamağıma göstəriş verdi.

Həmin günlərdə gedən döyüşlərdə biz şəhid vermədik. Ermənilərin çox sayda canlı qüvvəsini, texnikalarını məhv etdik. Düşmənin bütün atəş nöqtələri əsgərlərimiz tərəfindən darmadağın edildi. Şiddətli döyüşlər zamanı ermənilərin qışqırıq səsləri hər tərəfə yayılmışdı. Qaçmağa yerləri yox idi. Minaatanlarımız onları göyə uçururdular. Hiss olunurdu ki, baş verənlərdən şoka düşüblər. Özlərini tamamilə itirmişdilər. Bu döyüşlərdə keçmiş Naxçıvan DTK rabitəçilərinin əməyini qeyd etməmək ədalətsizlik olardı. O vaxtdan bu günədək Naxçıvana hücum etmək üçün ermənilər özlərində bir daha cürət tapmadılar.

Tezliklə Ulu Öndərin rəhbərliyi altında ruslarla təhvil-təslim prosesi başa çatdı. Sovetlər birliyində Naxçıvan ilk bölgə idi ki, ruslardan hərbi əmlakı alıb, onları gül-çiçəklə yola salırdı. Rus diviziyasının yerinə müdafiə nazirinin əmri ilə briqada yaradıldı. Elman Abbasov briqadaya komandir təyin olundu. Beləliklə, Naxçıvanın üzərindən təhlükə sovuşdu. Lakin heç kəsin ağlına gəlməzdi ki, biz tezliklə torpaqlarımızın 20 faizini itirəcəyik. Dahi rəhbərlə görüşüb, xeyli söhbətdən sonra Ali Məclisdən çıxdım. Görüş zamanı Ulu Öndər mənə nazirliklərdən birinə yüksək vəzifəyə irəli çəkilməyimə, növbədənkənar polkovnik rütbəsi, "Azərbaycanın Milli Qəhrəmanı" adının verilməsinə münasibətimi öyrənmək istədi. Bildirdim ki, torpaqları işğal altında, əsarətdə əsirləri, qız-qadınları olan, şəhidlərinin intiqamı alınmayan bir məmləkətin heç bir vətənpərvər övladı bugünkündə o adı qəbul etməz. Ulu Öndər alnımdan öpərək: "Mən də bu cavabı gözləyirdim", – dedi.

... Xüsusi dövlət əhəmiyyətli tapşırıq vaxtında, şərəflə yerinə yetirilmişdi. Nə zaman Şəhidlər xiyabanına çatdığımı özüm də hiss etmədim. Burada xeyli şəhid valideynləri, doğmaları, yaxınları var idi. Torpağa şəhid qanı tökülərsə, o torpaq Vətən olur. Bu yazımı qanları, canları bahasına Naxçıvanı qoruyan qəhrəman oğullarımıza ithaf edirəm. Yazıda 1992-ci ilin əvvəlindən sentyabr ayına qədər yaşanmış gerçək hadisələr ilk dəfə, qısa olaraq öz əksini tapıb. Son 4 ayda evə getməmişdim. Doğmalarım gələcəyimi bilirdilər. Anam sevdiyim yeməkləri hazırlamışdı. Evə tələsirdim, sonra isə bir nəfərlə görüşəcəkdim...

...2003-cü ilin əvvəllərində Naxçıvan Muxtar Respublikası Milli Təhlükəsizlik Nazirliyinin bir əməkdaşı mənimlə görüşmək istədi. Bildirdi ki, Azərbaycan Respublikasının Milli Təhlükəsizlik naziri, general-polkovnik Namiq Abbasov tərəfindən Naxçıvan Muxtar Respublikası Ali Məclisinə bir məktub göndərilib. Nazirin göstərişi ilə mənə tapşırılıb ki, aşağıdakıları sizə çatdırım:

– Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin, dövlətçiliyinin qorunmasında göstərdiyiniz müstəsna xidmətlərə görə Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyev, Azərbaycan dövləti, hökuməti və Milli Təhlükəsizlik naziri adından Sizə təşəkkür olunur.

Ulu Öndərin gözəl bir ifadəsi var: ***"Qoy ədalət zəfər çalsın!"*** İllər keçdi. Ədalət zəfər çaldı. 1993-cü ilin yayında Ulu Öndər xalqın tələbi ilə Bakıya getdi. Əvvəlcə Ali Sovetin Sədri, sonra isə Azərbaycan Respublikasının Prezidenti seçildi. Dahi şəxsiyyət 2003-cü il dekabrın 12-də dünyasını dəyişdiyi günə qədər Azərbaycan Respublikasının iqtisadi və hərbi cəhətdən güclənməsi yolunda böyük işlər gördü. Onun layiqli varisi, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev ata vəsiyyətini yerinə yetirərək torpaqlarımızı düşmən tapdağından azad etdi.

*Bu gün Azərbaycan xalqı Ulu Öndərin anadan olmasının 100 illiyini təntənə ilə qeyd edir. Bu tarixi gündə Ulu Öndərin Naxçıvanın müdafiəsində həyata keçirdiyi əzəmətli işləri xalqımızın nəzərinə çatdırmaq üçün Xüsusi dövlət əhəmiyyətli tapşırıq haqqında qeydlərimi oxucularla bölüşmək qərarına gəldim. Mən müstəqillik tariximizin çətin bir dövründə bu tapşırığın yerinə yetirilməsində əməyi olan bütün insanları minnətdarlıqla xatırlayıram. Öz həyatını Azərbaycan xalqının parlaq gələcəyi naminə Günəş kimi yandıran Ulu Öndərimizə Allahdan rəhmət diləyirəm!*

**Urfullah QURBANOV**

***Naxçıvan Muxtar Respublikası Dövlət Müdafiə Komitəsinin Əks-kəşfiyyat şöbəsinin sabiq rəisi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevin səlahiyyətli hərbi nümayəndəsi***

## Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş tədbir

Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin kollektivi görkəmli dövlət xadimi Heydər Əliyevin 100 illik yubileyi münasibətilə keçirilən tədbirdən əvvəl Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsini ziyarət edib, dahi şəxsiyyətə ehtiramlarını bildirərək abidə önünə gül dəstələri qoyub. Sonra Heydər Əliyev Muzeyinə baxış olub.

Xidmətin inzibati binasında davam etdirilən tədbirdə öncə Ulu Öndər Heydər Əliyevin və Vətən yolunda canlarını qurban verən qəhrəman şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla anılıb, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin rəisi, III dərəcəli dövlət miqrasiya xidməti müşaviri Şahin Nəbiyev xalqımızın qəlbində daim yaşayan müdrik şəxsiyyət Heydər Əliyevin siyasi hakimiyyətinin bütün dövrlərində Azərbaycanın mənafeyi uğrunda mübarizə apardığını bildirib.

Xidmət rəisi qeyd edib ki, Ulu Öndərin 1990-1993-cü illərdə Azərbaycan və Naxçıvan parlamentlərinin deputatı, Naxçıvan Muxtar Respublikasının rəhbəri kimi fəaliyyət göstərməsi milli dövlətçiliyin bərpası istiqamətində böyük addımların atılması ilə nəticələnmiş, muxtar respublikamız işğal təhlükəsindən qorunmuşdur. 1990-cı il noyabr ayında görkəmli dövlət xadiminin sədrliyi ilə keçirilən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin ilk sessiyasında qəbul olunan tarixi qərarlar milli dövlətçiliyimizin əsaslarının yaradılmasına hesablanmışdır.

Şahin Nəbiyev bildirib ki, Ümummilli Lider bütün sahələrdə olduğu kimi, miqrasiya proseslərinin tənzimlənməsi istiqamətində də çox mühüm tədbirlər həyata keçirib. Müdrik şəxsiyyətin cəmiyyət və dövlət quruculuğu prosesində miqrasiya sahəsinə xüsusi diqqət yetirməsi ölkəmizdə bu proseslərin müstəqil dövlətimizin tərəqqisi naminə istiqamətləndirilməsinə münbit zəmin yaratmaqdadır. Ulu Öndər müxtəlif səbəblərdən miqrasiya etmiş ölkə vətəndaşlarının hərtərəfli dövlət qayğısı ilə əhatə olunmasına, onların üzləşdiyi problemlərin həllinə həmişə diqqətlə yanaşmışdır.

Sonda dahi rəhbərin zəngin həyat yolundan və siyasi fəaliyyətindən bəhs edən "Əbədiyyətin ilk əsri. Heydər Əliyev – 100" sənədli filmi nümayiş olunub.

***Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin mətbuat xidməti***

# Heydər Əliyev İli 2023

*"Heydər Əliyevin xatirəsinə ən böyük hörmətimiz onun yoluna sədaqətimizdir. Biz bu yolla gedirik və bu gün Azərbaycan reallıqları, uğurlar, qələbələr, bax, bu yolun təməlində dayanıb".*

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***

## Hərbi uğurların diplomatiyadakı təzahürü

### *Laçın laçın çağlarına geri dönür*

1992-ci ilin çətin günləri idi. Cənnət Şuşa bir neçə gün idi ki, düşmənə peşkəş verilmişdi bacarıqsız hakimiyyətin əli ilə. Hələ Xocalı faciəsinin dərdinə, acısına ağlayan gözlərin yaşı qurumamış Şuşa dərdi düşmüşdü insanların ürəyinə. Laçının da canına üşütmə düşmüşdü sanki. Səfalı meşələrini, qartallı dağlarının başını duman almışdı. İgid oğulları can verdikcə bir qarış torpaq uğrunda, qanı hopduqca torpağına, harayı ərşə qalxırdı Laçının. Yaxşı bilirdi ki, Şuşa əldən gedibsə, onun taleyi də eyni olacaq. Elə düşündüyü kimi də oldu. Bacarıqsız, xalqını yox, öz mənafeyini düşünən rəhbərlərin ucbatından o da əsir oldu düşmənə. Uzaq düşdü elindən, obasından, ayrıldı doğma anasından, doğma insanlarının isti nəfəsinə, hənirtisinə həsrət qaldı illərlə. Düşmən əsgəri gəzdikcə sinəsi üstə ərşi dağlara yayılırdı Laçının. Amma heç vaxt ümidini itirmirdi, elə hey gözləri yol çəkirdi. Bilirdi ki, bu yollar bir gün onu əzizlərinə qovuşduracaq. 28 qış gəldi, bahar ötdü, amma Laçın baharı gəlmədi həmin payıza kimi. Həmin payız ki o payızda yaz günəşi doğuldu Azərbaycanın səmasında. İsitdi qəlbini həsrətlə yanan Laçının ürəyini. Elə ki Cəbrayılın, Qubadlının, Zəngilanın, Şuşanın azad olunduğunun sorağı gəldi, o da əmin oldu ki, igid Azərbaycan əsgəri onu da azad edəcək. Düz 44 gün gözləri yolda, qulağı səsdə qaldı. Şanlı Qələbənin döyüş meydanında qazanılan ən böyük uğuru Şuşanın azad edilməsi, hərbi uğurların diplomatiyadakı təzahürü isə Laçın oldu. Laçın 1 dekabr 2020-ci ildə tək güllə belə atılmadan azad edildi. Həmin gün qələbənin adı Laçın oldu. Azərbaycan Ordusu Laçının bir hissəsini döyüş meydanında azad etsə də, Laçın şəhəri dövlətimizin nəzarətindən kənarda qaldı. Bunun da səbəbi Xankəndidə yaşayan ermənilərin öz respublikalarına getmələri üçün lazım olan avtomobil yolunun şəhərin ortasından keçməsi idi. 9 noyabrda aparılan danışıqlar nəticəsində Ali Baş Komandanın təkidi ilə alternativ yolun çəkilişi də həmin sənəddə təsdiqini tapdı. 3 il ərzində yeni yolun çəkilişi nəzərdə tutulsa da, cəmi bir il 8 aya yol hazır oldu. Nəhayət, 2022-ci ilin avqustun 26-da Azərbaycan Ordusu Laçın şəhərinə daxil oldu. Həmin gün gəldi və biz, bəlkə də, həyatımızın ən xoş xəbərlərindən birini aldıq. Azərbaycan Prezidenti cənab İlham Əliyev rəsmi tviter səhifəsində Laçınla bağlı paylaşımında bunları yazdı: ***"Bu gün, avqustun 26-da biz – azərbaycanlılar Laçın şəhərinə qayıtmışıq Azərbaycan Ordusu Laçın şəhərinə yerləşdi. Zabux və Sus kəndləri nəzarətə götürüldü. Bütün laçınlılar və Azərbaycan xalqını bu münasibətlə təbrik edirəm Yaşasın Laçın! Yaşasın Azərbaycan!"*** Bu kəlmələri oxuyanda ölkə başçısının ***"Nəyi necə, nə vaxt etmək lazımdır, bunu mən bilirəm"*** ifadəsinin içimizdəki düşmənlərə verilən tutarlı bir cavab olduğunu bir daha gördük. Məhz 44 günlük savaşda qazanılan möhtəşəm Zəfərə kölgə salmaq istəyənlərə bu diplomatik qələbə ilə dərs verildi. Laçın dəhlizinin Azərbaycan Ordusunun nəzarətinə keçməsi, şəhərin mərkəzində dalğalanan bayraq deyilən sözlərin əmələ çevrildiyini sübut etdi. Ötən ilin sentyabrında Laçına gəlib bayrağımızı ucaldan Ali Baş Komandan dedi: ***"Şəhərin vaxtilə – 1980-ci illərdə tərtib edilmiş Baş Planı vardır. Bu, indi təhlil edilir, əlavələr olunacaqdır və Laçın şəhərini biz bərpa edəcəyik. Ümid edirəm ki, laçınlıların birinci qrupu Laçın şəhərinə gələn ilin sonuna qədər qayıda bilərlər. Mən buna ümid edirəm və əlimdən gələni edəcəyəm ki, biz buna nail olaq, tezliklə Laçın şəhərini bərpa edək. Biz, bütövlükdə, Laçın rayonunu və bütün başqa rayonları bərpa edəcəyik".***

Azərbaycan tarixində xüsusi yerə malik Laçın şəhəri işğaldan azad edildiyi gündən şəhərdə abadlıq-quruculuq işlərinə başlanıldı. Ölkə başçısı buraya etdiyi səfərlərdə laçınlılara tezliklə öz yurdlarına qayıdacağı müjdəsini verdi. Bu gün Laçın, sözün əsl mənasında, laçın çağlarına geri dönür. Ərazidə aparılan geniş tikinti-bərpa işləri nəticəsində Laçın gündən-günə abadlaşır. Statistik məlumatlara görə, erməni işğalından öncə Laçın şəhərində inzibati binalardan başqa, 2020 fərdi ev, 28 ümumi yaşayış binası olub. Təəssüf ki, işğal zamanı erməni vandalizmi nəticəsində 1500-dən artıq ev tamamilə dağıdılıb, təbiət isə ekoloji terrora məruz qalıb, bir çox abidə məhv edilib. 44 günlük Zəfər yürüşündə Azərbaycan Ordusuna məğlub olan düşmənin əsl simasını Laçına daxil olanda gördük. Şəhər dağıdılmış, tarixi abidələr yerləyeksan olmuşdu. Laçın əsl sahiblərinin nəzarətinə keçdikdən sonra isə artıq burada geniş tikinti-bərpa işlərinə başlanıldı. Laçın şəhərində doqquz içməli su anbarı, üç yağış sularının toplanması anbarı, bir çirkab suların təmizlənmə qurğusunun tikintisi davam edir. Həmçinin bərpası mümkün olan evlər əsaslı təmir olunur, işlər bitmək üzrədir. Müasir memarlıq üslubuna uyğun olaraq xalq memarlığı da qorunmaqla müxtəlif dizaynlı dekorasiya işləri aparılır. Evlərin əsaslı təmiri ilə yanaşı, həyətyanı sahələrin abadlığı, landşaft işləri paralel yerinə yetirilir. İşğal zamanı ekoloji terrora məruz qalan Laçın şəhərinin yaşıllıq zolaqları da bərpa edilir. Şəhər ərazisində yeni parklar salınır, iqlimə uyğun yeni ağac və bitkilər əkilir. Həyətyanı sahələrdə damcı-suvarma sistemi quraşdırılır. Yol infrastrukturunun qurulması üçün birinci üz asfalt örtüyünün salınması işləri davam edir. İş yerlərinin yaradılması məqsədilə istehsal müəssisələrinin tikintisi, o cümlədən əhalinin məşğulluğu üçün müxtəlif müəssisələrin açılması da nəzərdə tutulur. Sürətlə həyata keçirilən işlər Laçının doğma sakinlərinə tezliklə yenidən qucaq açacağından xəbər verir. Bunu bütün xalq görür və hamılıqla sevinirik ki, laçınlılar daha yurd həsrəti çəkməyəcəklər. Dövlət başçısının: ***"İndi isə vaxt gəlib çatıb ki, biz Laçın şəhərini bərpa edək. Artıq buna hazırlıq işləri görülür. Mən avqustun 26-dan dərhal sonra buraya bir neçə qrup göndərmişəm, bütün yaşayış fondunun təhlili, uçotu aparılacaqdır, dəymiş ziyan hesablanacaqdır. Eyni zamanda təxirəsalınmaz işlərin görülməsi üçün təkliflər hazırlanacaqdır. Laçın şəhəri, Zabux kəndi, Sus kəndi, ilk növbədə, yenidən qurulacaq. Əminəm ki, biz buna tez bir zamanda nail olacağıq. Çünki Vətən müharibəsindən sonra bu günə qədər keçən dövr ərzində gördüyümüz işlər genişmiqyaslı quruculuq və bərpa işləri göstərir ki, biz öz diyarımızı, Vətənimizi öz hesabımıza bərpa edirik və edəcəyik"*** qətiyyəti isə laçınlıları əmin edir ki, onlar tezliklə öz evlərinə qayıdacaqlar.

28 il Həkəri çayı lal axdı, xınalı qayalarının xınası soldu Laçının. Sarı Aşığın sazından qəm-qüssə sədaları gəldi. Ürəyi sazlı, sözlü laçınlılar dağlıq, meşəlik yerləri Laçına bənzətdi, ağı deyib ağladı. Amma heç bir dağdərə Laçının əvəzi ola bilmədi. Bir vaxtlar Rəşid Behbudovun səsindən can alan "Laçın" xalq mahnısı 28 il həsrət nəğməsinə çevrilmişdi. Bu mahnı hər dəfə səslənəndə bağrımız göynədi, gözlərimiz doldu. Laçınlı xanəndə Məhəbbət Kazımov isə ömrünün sonuna kimi ürək ağrısıyla "Laçınım", – dedi. Laçın işğaldan azad ediləndən sonra "Laçınım" mahnısının sədaları Laçın dağlarında əks-səda verəndə ürəyimiz o dağların buz bulaqları kimi sərinlədi. Həmin kadrları seyr edəndə illər öncə yaşadığım Goranboy rayonunun Ağcakənd qəsəbəsində məskunlaşan laçınlı Alimə xalanın söylədiyi aşağıdakı bayatını xatırladım:

*Laçın bir quş olaydı,*
*Uçub bağa qonaydı.*
*Son nəfəsim verəndə,*
*Mənə sirdaş olaydı.*

*Öz-özümə dedim ki, daha bitdi bu həsrət, əbədiyyən bitdi. Bundan sonra Həkəri daha gur axacaq, yazı da, qışı da bizim olacaq Laçının. Bu gün təkcə laçınlılar, bütün Azərbaycan daha həsrətlə deyil, sevinclə "Laçınım", – deyir. Laçın laçın vaxtlarına qayıdır.*

**Ramiyyə ƏKBƏROVA**

## O, Günəş ömrüdü, sönməyəcəkdir...

Görkəmli dövlət xadimi Heydər Əliyev haqqında qələmə alınmış nəzm, nəsr və dram əsərləri janr müxtəlifliyi və mövzu rəngarəngliyi ilə fərqlənir. Həmin əsərlərdə Ümummilli Liderin siyasi xadim, ədəbiyyatın, mədəniyyət və incəsənətin hamisi obrazı canlı şəkildə tərənnüm və təsvir olunub.




Şair-publisist İbrahim Yusifoğlunun "O, Günəş ömrüdü, sönməyəcəkdir" poeması görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin 100 illiyinə həsr olunub. Poemada müəllif öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmağı bacarmış Ulu Öndərin tarixi şəxsiyyət olmasını bədii dillə təsvir və tərənnüm edib.

Poemanın epiqrafla başlanması diqqətdən yayınmır. Ümummilli Liderimizə aid olan epiqraf poemanın süjet xəttinə daxil olmasa da, poemanın mövzusu ilə səsləşən hikmətli sözlər kimi diqqəti cəlb edir. Ulu Öndərin söylədiyi ***"Azərbaycan xalqının tarixi nailiyyəti olan Azərbaycan Respublikasının dövlət müstəqilliyini qorumağı, möhkəmləndirməyi, inkişaf etdirməyi özüm üçün ən əsas vəzifələrdən biri hesab edirəm. Heç kəsin şübhəsi olmasın ki, ömrümün bundan sonrakı hissəsini harada olursa-olsun, yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişaf etməsinə həsr edəcəyəm… Azərbaycan Respublikası bundan sonra müstəqilliyini itirməyəcək, yenidən heç bir dövlətin tərkibinə daxil olmayacaq, heç bir dövlətin əsarəti altına düşməyəcəkdir"*** qiymətli kəlamlar əsərin birinci səhifəsində özünə yer alıb.

Poemada Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin də fikirlərinin epiqraf kimi təqdimi əsərin bədii təsir gücünü xeyli artırıb. Azərbaycan Ordusunun Qələbə qazanması, Azərbaycan torpaqlarının azad edilməsi poetik dillə təqdim olunub.

Müəllif görkəmli dövlət xadiminin siyasi fəaliyyətini yüksək dəyərləndirməklə yanaşı, Onun bir siyasi xadim kimi əməllərinə də işıq salır:

*Atəşkəs dövründə Ulu Öndərin,*
*Ordu qurmaq oldu, müqəddəs anı.*
*Müstəqil, müdrik siyasətiylə,*
*Yenidən qururdu Azərbaycanı.*

Azərbaycançılıq məfkurəsinin, milli-mənəvi özünüdərketmənin Ulu Öndər siyasətinin, milli dövlətçilik təliminin ana xəttini təşkil etməsi və əsas prinsiplərindən olması poemada öz uğurlu həllini tapıb.

Poemada sələflik, xələflik, varislik məsələlərinə də toxunulub. Şair tərəfindən görkəmli dövlət xadiminin siyasi kursunun cənab İlham Əliyev tərəfindən böyük ehtiramla davam etdirilməsi vurğulanır:

*Ata vəsiyyətin oğul Prezident,*
*Doğrultdu müqəddəs əməllərində.*
*Yenilməz bir ordu qurub-yaratdı,*
*Dünyanın qarışıq, sərt illərində.*

Ədəbiyyata qayğı və böyük xidmətlər göstərmiş Ulu Öndərin bu sahədəki xidmətləri saymaqla bitmir. Görkəmli şair, yazıçı və dramaturqların yubileylərinin qeyd edilməsi, Cəfər Cabbarlının, Molla Pənah Vaqifin, Hüseyn Cavidin, Səməd Vurğunun ev-muzeylərinin açılması, Hüseyn Cavid, Vaqif məqbərələrinin, İmadəddin Nəsiminin, Nəriman Nərimanovun, Cəfər Cabbarlının heykəllərinin ucaldılması, Şüvəlanda Yaradıcılıq evinin istifadəyə verilməsi, Hüseyn Cavidin nəşinin Vətənə qaytarılması, ilk dəfə təsis olunmuş "İstiqlal" ordeni ilə Məmməd Arazın, Xəlil Rza Ulutürkün (ölümündən sonra), Bəxtiyar Vahabzadənin təltif edilməsi və poemada dahi rəhbərin ziyalılara qayğısı müəllifin nəzərindən yayınmayaraq onlara verdiyi dəyər yüksək qiymətləndirilib:

*Çox yazarlar ad aldılar,*
*Çox dahilər ucaldılar,*
*Zəhmətindən güc aldılar,*
*Vardı ümman hörmətimiz,*
*Heydər baba rəhbərimiz.*

Görkəmli dövlət xadiminin Azərbaycan ədəbiyyatında bədii obraz kimi şair və yazıçılar tərəfindən əks etdirilməsi Onun hakimiyyətə gəldiyi dövrdən başlayır. Akademik İsa Həbibbəyli həm sovet, həm də müstəqillik dövrü Azərbaycan ədəbiyyatında Heydər Əliyev obrazının işlənilməsi məqamlarına toxunmuş, sovet hakimiyyəti illərində Azərbaycan yazıçılarının Ulu Öndərin simasında xalqımızın milli iftixar mənbəyi olan, ölkəni tanıdan və inkişaf etdirən görkəmli dövlət xadiminin obrazını canlandırmalarını, müstəqillik dövrü Azərbaycan ədəbiyyatında isə dahi öndərin xilaskar obrazının yaradılmasını, Onun milli dövlətçiliyin qorunub saxlanılmasında və möhkəmləndirilməsindəki rolunu bədii sözün bütün vüsəti ilə təsvir və tərənnüm etməyə səfərbər olmalarını qeyd etmişdir.

İbrahim Yusifoğlu "O, Günəş ömrüdü, sönməyəcəkdir" poemasında obrazın zahiri görünüşünü təsvir etməklə bərabər, həm də keçirdiyi nigarançılıq, təəssüf, sevinc, kədər hisslərini də qələmə alaraq obrazın daxili portretini oxucunun gözündə canlandırır:

*Qəlbində nisgilli dərd çağlayırdı*
*Vətənin talanan sərvət-varına.*
*Ömrünün müqəddəs işi sayırdı*
*Qaytarsın xalqını torpaqlarına.*

"O, Günəş ömrüdü, sönməyəcəkdir" poeması Heydər Əliyevin bir tarixi şəxsiyyət kimi rəhbərlik etdiyi dövlətin azadlığı və dirçəlişi yolunda apardığı mübarizəni bədii dillə tərənnüm edir, dahi rəhbərin keçdiyi şərəfli, həmçinin keşməkeşli həyat yolunun heç də asan və hamar olmadığını açıqlayır.

**Salidə ŞƏRİFOVA**
***AMEA Ədəbiyyat İnstitutunun professoru, Rusiya Təbiət Elmləri Akademiyasının həqiqi üzvü***

# Heydər Əliyev İli

100

**Ulu Öndər Heydər ƏLİYEV:** *“Mən istəyirəm ki, mənim arzum, istəklərim, Azərbaycan dövləti haqqında, müstəqil Azərbaycanın gələcəyi haqqında və Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan haqqında planlarım, arzularım yerinə yetirilsin”.*



ŞƏRQ qapısı

Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir
və onlar geri qaytarılmır

Nömrəyə məsul: Muxtar Məmmədov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1000. Sifariş № 319